QARABAĞ AZƏRBAYCANDIR!

## Davamlı inkişaf, yüksələn rifah, güclü dövlət!



6

# Müasir təhsil ocaqları yeni dünya düzənində



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda "STEAM İnnovasiya Mərkəzi"ndə və Uşaq-Gənclər İnkişaf Mərkəzində olublar

2



SƏS

№ 001 (6684) 6 yanvar 2023-cü il. Qiymәti 60 qәpik

# Xoflu Fransa və erməni iddiası



7

## Qərbi Azərbaycandan deportasiya edilənlərin siyahıya alınması ilk mərhələdə hansı illər üzrə aparılır?



4

## Bu il Azərbaycandan Həcc ziyarəti olacaq



5

## Rusiyalı ekspert: "Qərb Ermənistandan alver vasitəsi kimi istifadə edir"




13

## Mühüm Sərəncam: Hədəf əhalinin sosial rifahını yüksəltməkdir!

Prezident İlham Əliyev "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb



4

## İranın SEPAH dəstələri terror qruplaşması elan edilir!




5

# Müasir təhsil ocaqları yeni dünya düzənində

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda "STEAM İnnovasiya Mərkəzi"ndə və Uşaq-Gənclər İnkişaf Mərkəzində olublar







**Bu günün yeniyetməsi, gənci sabahın qurucusu, yaradıcısıdır. Hər bir ölkənin gələcək inkişafı məhz onlardan asılıdır. Odur ki, onların sağlam mühitdə böyüməsi, tərbiyə alması üçün dövlətimiz tərəfindən tədbirlər görülür. Bu qayğı sağlam düşüncəli, sağlam ruhlu, sağlam vücudlu insanların yetişməsi ilə yanaşı, onların vətənə bağlı, vətən sevgili vətəndaş kimi böyüməsinə xidmət edir.**

Təbii ki, yetişən nəslin xalqa bağlı şəkildə böyüməsi və formalaşmaları hər bir dövlət üçün prioritet məsələdir. Uşaqların layiqli vətəndaş kimi yetişmələri, uşaqlarla bağlı sosial problemlərin həlli, uşaq hüquqlarının etibarlı təminatı baxımından dövlət səviyyəsində bütün addımlar atılır. Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləmək və bu sahədə dövlət orqanlarının, müəssisələrin və təşkilatların hüquq və vəzifələrini müəyyən etmək məqsədilə "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib.

Gənc və yetişən nəslin düzgün tərbiyəsi, fiziki və mənəvi inkişafı, savadlı vətəndaş kimi böyüməsi və digər vacib amillər onların gələcəkdə cəmiyyətə inteqrasiyasında önəmli rol oynayır. Yeni məktəblərin tikintisi və təmiri, idman infrastrukturunun yenilənməsi, stadionların və olimpiya komplekslərinin inşası və s. əlbəttə ki, sağlam gəncliyin yetişməsi və inkişafına xidmət edir.

### UŞAQ-GƏNCLƏR İNKİŞAF MƏRKƏZİ

İstedadlı uşaqların yaradıcılıq imkanlarının inkişaf etdirilməsi də daim diqqət mərkəzindədir. Görülən işlərin davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Uşaq-Gənclər İnkişaf Mərkəzində əsaslı təmir və bərpadan sonra yaradılan şəraitlə tanış olublar. Mərkəzin binasının əsaslı təmiri və bərpası əlbəttə ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın gənc nəslin müasir dövrün inkişaf trendlərinə uyğun formalaşmasına göstərdikləri diqqət və qayğının daha bir nümunəsidir.

Ardı Səh. 3



## Prezident: "Tolerantlıq ənənələrinin təşviqi dövlət siyasətimizin prioritet istiqamətlərindəndir"

**Tarixən dostluq və qardaşlıq mühitinin, yüksək birgəyaşayış mədəniyyətinin hökm sürdüyü Azərbaycanda ayrı-ayrı xalqların və dini etiqadların nümayəndələri əsrlərlə sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Bu gün dünyada mültikulturalizmin ünvanlarından biri kimi tanınan və sivilizasiyalararası münasibətlərin inkişafına əhəmiyyətli töhfələr verən ölkəmizdə dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, hər kəs bərabər hüquq və azadlıqlara malikdir.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Prezident İlham Əliyevin Azərbaycanın pravoslav xristian icmasına ünvanladığı məktubunda yer alıb.

Dövlətimizin başçısı məktubunda qeyd edib ki, cəmiyyətimizdə yüz illər boyu təşəkkül tapmış mədəni müxtəlifliyin, yüksək humanizm prinsiplərinin, zəngin tolerantlıq ənənələrinin qorunub saxlanılması və təşviqi Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Azərbaycanın bütün xristian icmasını Milad bayramı münasibətilə səmimi-qəlbdən təbrik edib, onlara səadət və firavanlıq arzulayan Prezident İlham Əliyev məmnunluq hissi ilə bildirib ki, Azərbaycanın digər etnik-dini qrupları kimi xristian həmvətənlərimiz də öz adət-ənənələrini, dil və mədəniyyətini yaşadaraq ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir, respublikamızda gedən böyük inkişaf və quruculuq prosesində vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər.

Milad bayramını yeniliyin, paklığın, mərhəmət və xeyirxahlıq duyğularının rəmzi adlandıran dövlətimizin başçısı qeyd edib: "Bu müqəddəs gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram".

# Müasir təhsil ocaqları yeni dünya düzənində

Əvvəli Səh. 2

Xatırladaq ki, 1937-ci ildə Bakıda yerləşən binada Mərkəzi Pionerlər Sarayı yaradılıb. Bundan məqsəd uşaqların asudə vaxtını səmərəli və məqsədəuyğun təşkil etmək, onların bilik, bacarıq və vərdişlərini inkişaf etdirmək, məktəbdənkənar tərbiyə işinin təşkilində uşaqlara praktiki və metodiki kömək göstərməkdən ibarət olub. İlk vaxtlar sarayda texniki yaradıcılıq, bədii tərbiyə, təsviri sənət, fiziki tərbiyə üzrə dərnəklər fəaliyyət göstərib. 1946-cı ildə sarayda xoreoqrafiya, xalq çalğı alətləri, qarmon ifaçıları və xor kollektivlərindən ibarət mahnı və rəqs ansamblı yaradılıb. Bəstəkar Qəmbər Hüseynli ansambl üçün "Cücələrim" mahnısını yazıb. Məhz bu səbəbdən 1959-cu ildə kollektiv "Cücələrim" adlandırılıb. 1961-ci ilin aprelində dünyanın ilk kosmonavtının şərəfinə saraya Yuri Qaqarinin adı verilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 1991-ci il 427 saylı qərarına əsasən Y.Qaqarin adına pioner və məktəblilər sarayının adı dəyişdirilib, Tofiq İsmayılov adına Respublika Uşaq-Gənclər Yaradıcılıq Sarayı adlandırılıb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 noyabr tarixli qərarına uyğun olaraq Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi, Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzi









və Tofiq İsmayılov adına Bakı Şəhəri Uşaq-Gənclər Yaradıcılıq Sarayı birləşdirilərək onların bazasında Uşaq-Gənclər İnkişaf Mərkəzi yaradılıb, ötən il isə ona publik hüquqi şəxs statusu verilib. Fəaliyyəti dövründə minlərlə istedadlı gəncin müxtəlif ixtisaslar üzrə formalaşmasında mühüm xidmətləri olan Mərkəz 2022-ci ildə əsaslı təmir edilib. İstifadəyə verildikdən sonra Mərkəzdə rəqs, musiqi alətləri, vokal, sağlam həyat tərzi, teatr, rəssamlıq, xarici dillər, intellektual inkişaf, elm və texnologiya, ekoklub, psixologiya, kulinariya və turizm istiqamətləri üzrə 44 dərnək təşkil olunub. Həmin dərnəklərdə 1500 nəfərədək şagirdin məşğul olması nəzərdə tutulub. Həmçinin binada 20 inzibati, 20 texniki və 65 pedaqoji işçi çalışacaq.







## "STEAM İNNOVASİYA MƏRKƏZİ" - GƏNC NƏSLİN YENİ İDEYALARININ REALLAŞDIRILMASINA GÖSTƏRİLƏN DİQQƏTİN TƏZAHÜRÜ

2023-cü ilin ilk günlərində Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda "STEAM İnnovasiya Mərkəzi"nin açılışında da iştirak ediblər. Bu Mərkəzin yaradılması dövlətimiz tərəfindən ölkəmizdə elm və təhsil sahəsində yeniliklərin tətbiqinə, təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə, gənc nəslin yeni ideyalarının reallaşdırılmasına göstərilən diqqətin və verilən əhəmiyyətin əyani təzahürüdür.

Burada aviasiya məkanı, klassik Nyuton, uşaqlar üçün Nyuton, konfrans, oyun, konstruksiya, "Heureka Classics" otaqları, robotların hazırlanması laboratoriyası, "3D hologram", VR zonaları mövcuddur.

Təbii ki, müasir dünya reallıqları gələcəkdə yüksəkixtisaslı mütəxəssislərin yetişməsi üçün təhsil qarşısında bir çox mühüm vəzifələr qoyur. Həyatın bütün sahələrində işlərin yeni dünya düzəninə uyğun qurulması üçün təhsil ocaqlarında öyrənmək maraqlı olmalı, bilik təcrübədə tətbiq edilməli, təlim maraqlı formada keçilməlidir. Yəni, bu günün məzunları müasir tələblərə cavab verən, əmək bazarında özünü doğruldan şəxslər olmalıdır. Elə bu məqsədlə də Elm və Təhsil Nazirliyi 2019-2020-ci tədris ilindən başlayaraq Heydər Əliyev Fondunun dəstəyi ilə "STEAM Azərbaycan" layihəsinə start verib. STEAM - elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birləşməsi nəticəsində yeni ideyaların reallaşdırılması, cəmiyyətdə müxtəlif problemlərin həllinə kömək edə biləcək təhsil yanaşmasıdır. Hazırda ölkəmizin bir sıra məktəblərində STEAM otaqları və mərkəzləri fəaliyyət göstərir.

## MÜASİR DÖVRDƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA STEAM TƏDRİS ÜSULU

STEAM layihəsi təhsilalanlarda tənqidi, yaradıcı düşüncə, əməkdaşlıq etmə və s. kimi XXI əsr bacarıqları formalaşdırmaq, yaradıcı proses vasitəsilə öyrənmə imkanı yaratmaq, fənnləri ayrılıqda öyrətmək deyil, onları real dünyadakı tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirmək, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə edə bilmə qabiliyyətlərini yüksəltməkdir.

"STEAM Azərbaycan" layihəsinin davamı olan "STEAM İnnovasiya Mərkəzi"nin fəaliyyəti orta məktəblərdə eyniadlı mövcud mərkəzlərin tədris proqramına görə fərqlənir. Bu Mərkəzə müraciət edən müxtəlif yaş kateqoriyasından olan məktəblilər və tələbələr XXI əsr bacarıqlarını - kreativliyi, əməkdaşlığın inkişaf etdirilməsini, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə qabiliyyətlərini yüksəldəcəklər. Uşaqlar real həyat problemləri ilə qarşılaşdıqda, STEAM metodu vasitəsilə onun rahatlıqla ən uyğun həlli yollarını tapmağa çalışacaq və yaradıcı yanaşmalarını nümayiş etdirəcəklər.

Elmin və texnologiyaların öyrədilməsində ənənəvi yanaşmadan fərqli olaraq, STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərir. Bu yanaşma şagirdlərə mühəndislik sərişţələri öyrədir, real həyatda problemlərin həlli zamanı tətbiqini aşılayır. STEAM layihəsi şagirdləri hansı peşə seçmələrindən asılı olmayaraq həyata hazırlayır. Mərkəzin məqsədi şagirdlərin potensialını və maraqlarını cəmiyyətə xidmət işinə yönəltmək, onları öyrənməyə həvəsləndirməkdir. STEAM tədris üsulu müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafında çox böyük əhəmiyyətə malikdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Mühüm Sərəncam: Hədəf əhalinin sosial rifahını yüksəltməkdir!

*Prezident İlham Əliyev "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb*



Azərbaycan Prezidenti İlham Əliyev ”Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” yanvar ayının 5-də Sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə ciddi irəliləyişlərə nail olunub, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılıb. Sərəncamla Nazirlər Kabinetinə 10 gün müddətində əmək pensiyasının minimum məbləğinin 280 manata çatdırılmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini Azərbaycan Prezidentinə təqdim etmək; Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin edib Azərbaycan Prezidentinə məlumat vermək tapşırılıb.

### PREZİDENT İLHAM ƏLİYEVİN SİYASƏTİNİN MƏRKƏZİNDƏ HƏR ZAMAN VƏTƏNDAŞ RİFAHININ TƏMİNATI DAYANIB

Sosial dövlət olan Azərbaycanda vətəndaşların maraqları yüksək səviyyədə təmin edilir. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan sosial islahatlar dövlət başçısının daim vətəndaşları düşündüyünü və onların sosial rifahının yaxşılaşdırılması istiqamətində daim addımlar atdığını bir daha təsdiqləyir. Bu baxımdan, cari ilin yanvar ayının 5-də Prezidet İlham Əliyevin ”Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” sərəncamı əhalinin sosial rifahının qorunmasına xidmət edən növbəti Sərəncamıdır. Sərəncama əsasən Azərbaycanda minimum aylıq əməkhaqqı 345 manat müəyyən edilib. Bu isə bir daha isbatlayır ki, Prezident İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinə uyğun olaraq aparılan islahatlar nəticəsində son 4 ildə əmək müqavilələrinin sayı 30 faiz, illik əməkhaqqı fondu 2 dəfədən çox və 2022-ci ilin ilk rübündə də 11,1 faiz artıb. Xüsusi olaraq qeyd edilməlidir ki, şəhid ailələri və müharibə əlillərini xüsusi qayğı ilə əhatə edən dövlət başçısının fərman və sərəncamları ilə həmin kateqoriyadan olanların sosial təminatı mütəmadi gücləndirilib, onlara yönələn sosial ödənişlərin də son 4 ildə ardıcıl şəkildə artırılması təmin edilib. Göründüyü kimi, 2018-ci ildən ötən 4 ildə həyata keçirilən sosial tədbirlər bir daha Prezident İlham Əliyevin andiçmə mərasimində çıxışında söylədiyi ”Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar” fikirlərinin yüksək səviyyədə öz əməli təsdiqini tapdığını isbatlayır. Ölkə vətəndaşları da əmindirlər ki, mühüm sosial irəliləyişləri təmin edən Prezident İlham Əliyevin uğurlu sosial siyasəti qarşıdakı dövrdə də yeni-yeni nailiyyətlər qazandıracaq, insanların yaşayış səviyyəsini daha da yüksəldəcək.





### Vətəndaşların sosial rifahının yüksəldilməsi dövlətimizin başçısının həyat amalıdır

Bir sözlə, görülən işlər bir daha onu sübut edir ki, insan amili, vətəndaşların sosial rifahının yüksəldilməsi dövlətimizin başçısının həyat amalıdır, ən başlıca vəzifə kimi qarşıya qoyulub və bu əməli fəaliyyətdə qəbul olunmuş qərar və sərəncamlarda öz əksini tapır. Prezident İlham Əliyevin imzaladığı sərəncamlar dövlət başçısının daim vətəndaşları düşündüyünü və onların sosial rifahının yaxşılaşdırılması istiqamətində addımlar atdığını bir daha təsdiqləyir. Post-müharibə və pandemiya dövründə sosial sahəyə bu qədər önəmin verilməsi bir daha göstərir ki, Prezidentin siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının rifahı dayanır. Göründüyü kimi, görülən bu işlərin nəticəsidir ki, Azərbaycanda pensiya təminatı və digər sosial göstəricilər bir sıra sahələrdə MDB ölkələri arasında ilk pillələrdə qərarlaşıb.

Ümumiyyətlə, əmək haqqlarının artırılması, pensiya və müavinətlər, əhalinin ən müxtəlif təbəqələrinin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı dövlət başçısının imzaladığı çoxsaylı fərman və sərəncamlar, həyata keçirilən sosial islahatlar dövlətin bu istiqamətdə davamlı siyasətinin məntiqi nəticəsidir. Və cari ildə də bu uğurların sırası daha da genişlənəcək.

**RƏFİQƏ KAMALQIZI**

# Əməkhaqqı artmasının təsirləri nələr olacaq?

*İQTİSADÇI ŞƏRH ETDİ*



“Prezident İlham Əliyev əmək pensiyasının minimum məbləğinin 280 manata çatdırılmasına dair və minimum aylıq əməkhaqqı məbləğinin 2023-cü ilin yanvarın 1-dən 345 manat müəyyən edilməsi barədə sərəncam imzalayıb. Bu sərəncamın təsiri əhəmiyyətli dərəcədə görünəcək”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli deyib.

Onun sözlərinə görə, minimum əməkhaqqı 300 olanların maaşı 345 manata yüksəldi: ”Bu, həm özəl sektorlara, həm də dövlət sektorlarına şamil ediləcək. Mülkiyyətindən asılı olmayaraq bütün subyektlərin bu artımı etməsi məcburidir. Digər işçilərin iş kateqoriyalarına görə də minimumun əməkhaqqının artması ilə artım onlara da şamil ediləcək. Aşağı əməkhaqqı alanlar üçün isə fərq daha da görsənəcək. Keçən ildə minimum əməkhaqqı artmışdı. Bilirik ki, iqtisadi baxımdan ciddi inflyasiya mövcuddur. Ötən il 14-15 faiz həcmində inflyasiya var idi. Hökumət bunu indeksləşdirmək üçün addımlar atır. Bu isə insanların rifahının çox da pisləşməsinin qarşısını alır. İnflyasiyanın qarşısını almaq üçün bu əməkhaqqıların qaldırılması ilə vəziyyəti balanslaşdırılmış olacaq. Bu, eyni zamanda, şirkətlərin xərcini bir qədər artırmış olacaq. İnflyasiyanın digər amilləri zəifləyəcəyinə görə minimum əməkhaqqının artırılması inflyasiyanı dəstəkləyən amilə çevrilməyəcək. Keçən il minimum pensiya 240 manat idi. Bu il isə 280 manat kimi müəyyənləşdi. Bu, o deməkdir ki, 280 manatdan aşağı heç kəs pensiya ala bilməz. Bu isə yaşayış minimumu üzərindədir. Hökumət bu addım ilə əməkhaqları və pensiyaları yaşayış minimumu üzərinə qaldırır və minimum yaşayış üçün şərtlərin formalaşdırılmasına çalışır”.

***Qönçə Quliyeva***

## Qərbi Azərbaycandan deportasiya edilənlərin siyahıya alınması ilk mərhələdə hansı illər üzrə aparılır?



Ötən əsrdə Qərbi Azərbaycandan deportasiya edilən soydaşlarımızın siyahıya alınması prosesi ilk olaraq 1988-1991-ci illərdə həmin ərazilərdən çıxarılanlarla bağlı aparılır. Bu tarixdə deportasiya olunan soydaşlarımızın əksəriyyəti həyatdadır. Onların şəxsiyyət vəsiqələri (pasport), həmçinin Ermənistan SSR-də təhsil aldıqlarına dair, eləcə də mülkiyyətləri ilə bağlı sənədləri var.

Bunu Qərbi Azərbaycan İcmasının mətbuat katibi Ülviyyə Zülfiqar AZƏRTAC-a açıqlamasında söyləyib.

Ülviyyə Zülfiqar deyib: ”Xronologiya baxımından sonuncu deportasiya (1988-1991-ci illər) yaxın vaxtda baş verdiyindən işimizin daha sürətli getməsi üçün prosesə həmin dövrdən başlamışıq. Həmin dövrdə azərbaycanlıların yaşadıqları 300 yaşayış məntəqəsindən 150-dən çoxunun əhalisi hazırda siyahıya alınıb və bu istiqamətdə iş davam etdirilir”.

Mətbuat katibi bildirib ki, əlavə olaraq digər deportasiyalar (1905, 1918-1920, 1948-1953) zamanı ata-baba yurdlarından çıxarılan azərbaycanlılar da qeydiyyata alınır. Lakin hələ ki, əsas diqqət 1988-1991-ci illərdəki deportasiyaya yönəldilib. Bu proses yekunlaşandan sonra digər illərdə zərər görənlərin və onların varislərinin qeydiyyatı tam şəkildə aparılacaq.

SİYASİ RAKURS

# İranın SEPAH dəstələri terror qruplaşması elan edilir!

## Almaniyada İran İnqilabı Keşikçiləri Korpusunun "qara siyahı"ya salınması ilə bağlı müraciətlər artır



İranda daxili gərginliklər artdıqca molla rejiminin silahlı dəstələri hakimiyyət tərəfindən xalqa qarşı daha aqressiv və daha amansız davranma əmrlərini alırlar. Buna misal kimi BƏSİC qüvvələrinin qəddarlıqlarını göstərmək olar. Qonşu ölkədə xalq etirazları başlayan gündən hazırkı dövrə qədər yüzlərlə qadın, uşaq, yeniyetmə, qoca və gənclərin ölümlərində əsas baiskarlar isə yalnız BƏSİC deyil, həm də İran İnqilabı Keşikçiləri Korpusunun - SEPAH-ın da əlinin olduğu kimsəyə sirr deyil. Ümumiyyətlə, şəhər və qəsəbələrə daxil olan silahlılar müxtəlif vasitələrdən istifadə etməklə etirazları qan bahasına yatırmağa davam edirlər. Lakin maraqlı məqam budur ki, öz azadlıqlarının, hüquqlarının təmin olunması üçün yola çıxan insanlar əsla geri çəkilmirlər və öz mübarizələrini daha qətiyyətlə davam etdirirlər. Azərbaycanlılar, farslar, bəluclar, kürdlər bir araya gəlməklə, vahid güc olaraq qəddar rejimin amansızlıqlarına qarşı çıxış edirlər.




### ABŞ və İsrail eyni qərarları bölüşürlər

Məhz belə bir məqamda dünyanın bir sıra aparıcı dövlətləri SEPAH və BƏSİC qüvvələrini terror qruplaşmaları siyahısına salmaq barədə qərarlar verməyə başlayıblar. Artıq ABŞ-da həmin qərar demək olar ki, qəbul edilib. O cümlədən, İsrail hökuməti də eyni qərarı verib.

Lakin Avropa ölkələri də həmin qərarlar ətrafında düşünməkdədirlər. Belə ki, SEPAH və s. qüvvələrin terrorçu qruplaşmalar siyahısına salınması o deməkdir ki, gələcəkdə istənilən ünsiyyət, dəstək, toplantılarda iştirak və ictimai yerlərdə bu hərbi təşkilatın loqosunun əks olunduğu bayrağın qaldırılması rəsmi olaraq cinayət sayılacaq.






### Növbə Böyük Britaniyada və Almaniyadadır!

Onu da qeyd edək ki, Britaniya parlamenti bu ölkənin hökumətindən SEPAH-ı terrorçu qruplar siyahısına daxil etməyi tələb etdikdən sonra Almaniyadakı bir qrup siyasi fəal da öz ölkələrinin parlamentinə bu hərbi quruma qarşı oxşar addım atmaq üçün müraciətlər edib. Belə ki, həmin tələblər Britaniya hökumətinin yaxın gələcəkdə SEPAH-ın terror təşkilatları siyahısına salmağı planlaşdırdığına dair xəbərlərdən sonra irəli sürülür.

Xatırladaq ki, məhz bu silahlı qüvvələr ötən il iki dəfə Azərbaycanla həmsərhəd ərazilərdə irimiqyaslı hərbi təlimlər keçirməklə öz təbirlərincə bizə qarşı hədə-qorxu, ya da əzələ nümayişi göstərməyə çalışıblar. Lakin onların uğursuz təlimləri sadəcə görüntü təsirini bağışlayıb. Maraqlıdır ki, işğalçı və təcavüzkar Ermənistanla, eləcə də bu ölkənin silahlı qüvvələri ilə qardaşlıq münasibətləri quran rejim bu gün də müxtəlif bəhanələr gətirməklə zaman-zaman Azərbaycana qarşı dil uzadır, üstəlik parlament və s. səviyyələrdə siyasi həyasızlıq nümayiş etdirməklə ərazi iddialarına qədər fikirlər səsləndirirlər.

### Avropa məkanına ciddi təhlükələr saça bilər

Bütün bunlardan sonra sübut olunur ki, Cənubi Qafqaz regionunda sülhün və inkişafın bərqərar olmasına hər vəchlə mane olmağa cəhdlər göstərən qonşu ölkə əlinə düşən hər imkanda ermənilərlə münasibətlərini daha da sıxlaşdırır. Söz yox ki, bu kimi faktlar həm də Avropa ölkələrini də narahat edir. Çünki Tehran rejimi sanki bütün dünyaya meydan oxumaqla müharibə küləyini əsdirməyə çalışır və bu da əlbəttə ki, nəinki regiona, həm də bütövlükdə Avropa məkanına ciddi təhlükələr saça bilər. Məhz bu baxımdan, Britaniya, Almaniya kimi ölkələrdə də həmin faktorlar ciddiyə alınmağa başlayır.

*Rövşən RƏSULOV*



## “Prosesi Rusiya prezidenti əngəllədi”

”N.Paşinyanın Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin gündəmdə olduğunu, yaxın vaxtlarda belə bir müqavilənin imzalanacağını iddia etməsində qeyri-adi heç nə yoxdur. Çünki ötən il sülh sazişinin imzalanması ilə əlaqədar həm Brüsseldə, həm də Vaşinqtonda xeyli irəliləyiş əldə olunmuşdu və ilin sonunda müqavilənin imzalanması tamamilə real idi. Bu prosesi Rusiya prezidenti əngəllədi. Onun Valday forumunda verdiyi təxribat xarakterli bəyanat ermənilərdə müəyyən ümidlər yaratdı”. Bunu ”Səs” qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

A.Səmədov bildirdi ki, ermənilər güman etdilər ki, Azərbaycanın istəyinin ziddinə olaraq Rusiya sülh sazişinə söz verdiyi kimi, Qarabağın statusu ilə əlaqədar bənd daxil edə bilər: ”Ancaq ilin sonlarında keçirilən Soçi danışıqları göstərdi ki, Rusiya artıq əvvəlki illərdə olduğu kimi, ”son söz” demək səlahiyyəti olan ölkə deyil və Azərbaycanın istəmədiyi heç bir müddəa sülh müqaviləsinə salına bilməz. Həmin danışıqlardan sonra həm ABŞ Dövlət katibi, həm Avropa İttifaqı rəsmiləri N.Paşinyanla ciddi söhbət aparmaq və onun davranışının yanlış olduğunu ona başa salmaq məcburiyyətində qaldılar. Ermənistan Baş nazirinin son bəyanatları göstərir ki, bu danışıqlar öz təsirini göstərib və Paşinyan ”haqqın yoluna” qayıdıb. Ancaq nə qədər bu yolda qalacağı ciddi suallar doğurur. Çünki əvvəllər də biz dəfələrlə onun ”ağıllandığının” şahidi olmuşduq, ancaq Rusiyanın və Fransanın müəyyən vədlərindən sonra öz mövqeyindən imtina etmişdi. Ümid edək ki, bu dəfə belə olmayacaq və yaxın aylarda ”sülh sazişini” imzalamaq mümkün olacaq”.

*Gülyana*

## Bu il Azərbaycandan Həcc ziyarəti olacaq



Bu il Azərbaycandan Həcc ziyarəti olacaq. SİA-nın əldə etdiyi məlumata görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Xarici əlaqələr şöbəsinin müdiri Vüsal Cahangiri bildirib. Onun sözlərinə görə, yaxın günlərdə Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyi ilə müqavilələrin imzalanması gözlənilir:

”Həcc ziyarətinin koronavirusla bağlı ötən ilki şərtləri bir az yumşaldılacaq. Bildiyiniz kimi, ötən il ziyarətə 65 yaşına qədər olan şəxslər gedə bilərdi. Çox ehtimal ki, bu il ziyarət üçün yaş məhdudiyyəti də olmayacaq. Amma yəqin ki, koronavirusa qarşı iki doza vaksin tələbi qalacaq”.

# Davamlı inkişaf, yüksələn rifah, güclü dövlət!

## İLHAM ƏLİYEV: "Əminəm ki, Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevriləcək və digər ölkələrə nümunə olacaqdır"

**Prezident İlham Əliyevin 2018-ci il 11 aprel tarixli andiçmə mərasimindəki çıxışı zamanı bildirmişdir ki, gələcəyə baxmalıyıq: "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".**



### GÜCLÜ İQTİSADİYYAT, GÜCLÜ DÖVLƏT, GÜCLÜ LİDER

Bu, real faktordur ki, hər bir xalqın dünyada tanınmasında, uğurlar əldə etməsində və təbii ki, dünyada cərəyan edən qlobal proseslərin öndə gedənlərinə çevrilməsində liderlərin xüsusi əhəmiyyəti mövcuddur. Liderlik amili elə bir şəxsiyyətlərə aid olunur ki, onlar xalqın və dövlətin maraqlarını müdafiə etməklə yanaşı, həm də inkişaf etdirir. Məhz bu kimi önəmli faktorun təhlilini apararkən, Azərbaycanın bu siyahıda birinci olması şəksizdir. Çünki Azərbaycanın inkişaf və tərəqqi, eləcə də, xalqın rifahı faktorunda Azərbaycan Prezidenti İlham Əliyev Liderliyi amili mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Bəli, həqiqətən də bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik". Bu fakt son 19 ildə Azərbaycan iqtisadi göstəricilərinə görə islahatçı ölkələr siyahısında olması bir daha deyilənlərin göstəricisidir. Belə ki, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 19 ildə Azərbaycanın ümumi daxili məhsul istehsalı 3,4 dəfə artıb. 2003-cü ilə nisbətən ötən ildə qeyri-neft-qaz sektoru üzrə ÜDM istehsalı 3,1 dəfə, sənaye məhsulu istehsalı 2,7 dəfə, o cümlədən qeyri-neft-qaz sənayesi üzrə 3,6 dəfə çoxalıb. Xarici ticarət dövriyyəsində 6,5 dəfə, o cümlədən, idxalda 4,5 dəfə, ixracda 8,6 dəfə artıb olub. Təkcə bu ilin yanvar-noyabr aylarında Azərbaycanın xarici dövriyyəsi 49 milyard 217 milyon 15 min ABŞ dolları təşkil edib. Bunun 36 milyard 335 milyon 549 min dolları ixracın, 12 milyard 881 milyon 466 min dolları idxalın payına düşür.17 il ərzində 2,7 milyon yeni iş yerləri yaradılıb. Azərbaycan iqtisadiyyatı 3,5 dəfə, qeyri-neft sektoru 2,9 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 1,4 dəfə, əsas kapitala yönəlmiş vəsaitlərin həcmi 2,9 dəfə, dövlət büdcəsinin gəlirləri 20 dəfə, əhalinin nominal gəlirləri 9,9 dəfə, iqtisadiyyatın kreditləşməsi 22,8 dəfə artıb. İşsizlik səviyyəsi 9,2 faizdən 4,8 faizədək, yoxsulluq səviyyəsi 44,7 faizdən 4,8 faizədək azalıb. Bir sözlə, Azərbaycan dünyanın ən sürətli inkişaf edən iqtisadiyyatına malik ölkələrin sırasına daxil ola bilib. Beynəlxalq Valyuta Fondunun statistikasına görə, hazırda Azərbaycan iqtisadiyyatı alıcılıq qabiliyyəti paritetinə görə Cənubi Qafqaz regionunun ümumi iqtisadiyyatının 70 faizini təşkil edir. Azərbaycan enerji sahəsindən əldə olunan gəlirlərin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə xüsusi əhəmiyyət verir. Bu məqsədlə 1999-cu ildə Dövlət Neft Fondu yaradılmışdır. Prezident İlham Əliyev cənablarının dediyi "Əldə edilmiş uğurların dünyada bərabəri yoxdur" fikri, bu gün həqiqətən də ölkəmizdə İkinci Vətən müharibəsinin qələbəsi ilə başa çatması deyilənlərin göstəricisidir. Xüsusilə, mənfur terrorçu Ermənistan sentyabrın 27-də İkinci Vətən müharibəsi başlayan gündən bütün dünya bir daha şahidi oldu ki, Azərbaycan həqiqətən də güclü dövlətdir və bunu işğalçı, faşist xislətli düşmən dövlət də bir daha gördü. Və işğal olunmuş torpaqlarımızın azad olunması, məhz Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının uzun illər ərzində həyata keçirdiyi ordu quruculuğu nəticəsində dünyanın ən güclü 50 ordusundan birinə çevrilməsidir ki, Müzəffər Azərbaycan Ordusu və rəşadətli əsgərlərimiz bu gün döyüş meydanında öz sözünü deyir və işğalçılıq siyasətindən əl çəkmək istəməyən Ermənistan öz layiqli cavabını alır. Çünki Azərbaycan haqq və ədaləti, beynəlxalq hüquq müstəvisində öz ərazi bütövlüyünün bərpa olunması yolunda mübarizədə Qalib gələrək bir daha sübut etdi ki, Qarabağ Azərbaycandır! Bütün bunlar, dövlət başçımız Prezident İlham Əliyevin "Güclü iqtisadiyyat ən önəmli şərtdir. Azərbaycanda bütün məsələləri həll etmək üçün ilk növbədə iqtisadiyyat güclü olmalıdır" sözləri iqtisadiyyatın müstəsna rolunun qiymətləndirilməsi baxımından xüsusi məna kəsb etməklə Ulu Öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamının məntiqi davamı kimi də dəyərləndirilə bilər.Bəli, hər bir uğura güclü iqtisadiyyatla nail olunur. Məhz bu gün işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri həyata keçirilir. Böyük qayıdış prosesinin başlanması üçün ciddi addımlar atılır. Azərbaycan xalqı daha inamla irəliyə baxır və bu bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq. Bütün bunlara isə güclü iqtisadiyyatımızla nail olmuşuq.

### İSLAHATLARIN ƏSAS HƏDƏFİ AZƏRBAYCANI MÜASİR, İNKİŞAF EDƏN VƏ GƏLƏCƏKDƏ İNKİŞAF ETMİŞ ÖLKƏYƏ ÇEVİRMƏKDİR

"İslahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır. Biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparırıq, həm beynəlxalq mövqelərimizi möhkəmləndiririk, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik" - deyən ölkə başçısı çıxışlarında Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu vurğulayır, qeyd edir ki, "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir". Məhz bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik olan bir ölkəyə çevrilib.

### REGİONLARIN İNKİŞAFI DÖVLƏT BAŞÇISININ FƏALİYYƏTİNİN PRİORİTETİNİ TƏŞKİL EDİR

Həmçinin, onu da vurğulamaq lazımdır ki, iqtisadi qüdrəti getdikcə artan Azərbaycan qlobal böhranla mübarizə dövründə belə bölgələrin yüksəlişi davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Və regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayan və bu istiqamətdə kompleks tədbirlər həyata keçirən Prezident İlham Əliyevin verdiyi tapşırıqların icrasını mütəmadi olaraq şəxsən yoxlaması və bölgələrin təkmil konsepsiyanın icra vəziyyəti ilə bağlı hər il xüsusi müşavirələr keçirməsi bir daha təsdiq edir ki, regionların inkişafı dövlət başçısının fəaliyyətinin prioritetini təşkil edir. Azərbaycanın inkişaf yolunda inamla irəliləməsinin əsas səbəbi xalqın dövlətimizin başçısına olan etimadıdır. Daim Prezidentimizə sadiqlik nümayiş etdirən Azərbaycan xalqı ötən il Vətən müharibəsi zamanı daha böyük birlik nümayiş etdirərək qələbəmizin qazanılmasına töhfələrini verdilər. Qalib dövlətin qalib xalqı təbii ki, iqtisadi inkişaf yolunda bundan sonra da uğurlara nail olacaq, Prezidentimizin rəhbərliyi ilə möhtəşəm proqramların həyata keçirilməsinin şahidi olacağıq. Göründüyü kimi, bu reallıqlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin sözü ilə əməli arasında heç bir fərq yoxdur. Verilən vədlər artıqlaması ilə yerinə yetirilib və bu gün də davam etdirilir. Bütün bu uğurlar məhz güclü iqtisadiyyat nəticəsində əldə olunur. Bəli bu gün müstəqil Azərbaycan inkişafının ən qüdrətli dövrünü yaşayır. Məhz bu inkişaf bütün dünyaya örnək olan Prezident İlham Əliyev siyasətinin uğurlu nəticəsidir ki,

### GÜCLÜ DÖVLƏT-GÜCLÜ İQTİSADİYYAT-GÜCLÜ XALQ

Bir sözlə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi, misilsiz cəsarəti və yüksək təşkilatçılığı sayəsində Azərbaycan düzgün istiqamətdə irəliləyir və ildən-ilə dünyanın əksər ölkələrinə nümunə ola biləcək iqtisadi, sosial uğurlara imza atır. Ölkənin iqtisadi inkişafının davamlı olmasını özünün iqtisadi siyasətinin təməl prinsipi kimi dəyərləndirən Prezident İlham Əliyev güclü iqtisadiyyatın önəmini belə vurğulayıb: "Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil". Azərbaycana son 19 ildə 300 milyard dollara yaxın sərmayə yatırılıb. Xarici investisiyalar 2,2 dəfə artıb. 2004-2021-ci illərdə Azərbaycana 142 milyard dollar həcmində xarici investisiya qoyulub. 2003-2021-ci illərdə Azərbaycanın xarici ticarət əlaqələri qurduğu ölkələrin sayı 124-dən 188-dək və ya 51,6 faiz artıb.Qeyri-neft-qaz sahələrinə yönəldilən investisiyalar isə 7,2 dəfə artıb. 2004-2021-ci illərdə Azərbaycanın qeyri-neft-qaz sektoruna 179,5 milyard dollar həcmində investisiya yatırılıb. 2004-2021-ci illərdə Azərbaycanın digər ölkələrin iqtisadiyyatlarına qoyduğu investisiyaların ümumi həcmi 28,3 milyard dollar təşkil edib. Eyni zamanda, iqtisadiyyatın kreditləşdirilməsi 25,5 dəfə yüksəlib.2023-cü il üçün dövlət büdcəsinin gəlirlərinin 53 milyon 278 min manat artırılaraq 30 milyard 773 milyon 978 min manat müəyyənləşdirilməsi ölkə tarixinin ən yüksək göstəricisi hesab olunur. Dövlət büdcəsinin xərcləri də 53 milyon 278 min manat artırılaraq 33 milyard 353 milyon 278 min manat müəyyənləşdirilib.Azərbaycan həmçinin, dünyada özünü etibarlı tərəfdaş kimi təsdiqləyib. Nəhəng neft-qaz layihələri göstərib ki, biz bütün öhdəlikləri yerinə yetiririk. İmzalanmış kontraktlarda bir vergül belə dəyişdirilməyib.Azərbaycanın bütün uğurlarının, inkişafının təməlində iqtisadiyyatın inkişafı dayanır, ölkə iqtisadiyyatının da təməlində neft strategiyası durur.Bir sözlə, görünməyən dərəcədə əldə olunan bu uğurlar, məhz güclü iqtisadiyyat, güclü dövlət və güclü xalq birliyinin nəticəsidir. Və 2023-cü ildə Azərbaycanımızı, xalqımızı qarşıda daha nəhəng, daha davamlı uğurlar gözləyir - İlham Heydər oğlu Əliyev Cənablarının Liderliyi, rəhbərliyi və əlbəttə ki, müdrik siyasəti nəticəsində. Çünki bu gün Onun ətrafında həm də tükənməz xalq amili, tükənməz xalq sevgisi formalaşıb. İnanırıq ki, dövlətimiz bundan sonra da daha güclü iqtisadiyyata sahib olacaq.

**RƏFİQƏ HÜSEYNOVA**

# Xoflu Fransa və erməni iddiası



Ermənistan hərb meydanında, diplomatiyada uduzduğu kimi, zamana da uduzur, hər ötən gün işğalçı ölkəni içəridən hissə-hissə çürüdür. 30 illik işğal Qarabağı Azərbaycandan ayıra bilmədi, həm də beynəlxalq qanunlar və münasibətlər, ölkələrin ərazi toxunulmazlığı prinsipi buna imkan vermədi. Ermənistan 30 il ərzində Qarabağı özəlləşdirə, o cümlədən dünyanın bir subyekti kimi tanıya və tanıda bilmədi, buna cəsarəti çatmadı. İrəvanın çətiri altında olan ermənilər müstəqillik iddiasına yalnız Azərbaycanın bütün sahələrdə təzyiqləri artan zaman düşürdülər. Sonradan məlum olacaqdı ki, əslində Qarabağ Qarabağdan kənarda yaşayan ermənilərə bir ərazi kimi lazım deyilmiş. Bunu Paşinyan da çıxışlarında dəfələrlə söyləyib. Bəziləri Paşinyanın ağıllandığını düşünə bilər, amma bu, belə deyil. Paşinyanın Qarabağdan talanan sərvətlərdə payı olmadığı üçün bu yükdən, Qarabağ problemindən qurtulmağa, bu "ağır daş"I erməni xalqının boynundan qoparmağa çalışır. Əgər Ermənistanın baş nazirinin ikinci və üçüncü prezidentlər kimi bu sərvətlərdə payı, umacağı olsaydı, yəqin ki, mənzərə fərqli olardı. Əslində ermənilər Qarabağı və ətrafındakı 7 rayonu ona görə işğal etmişdilər ki, Azərbaycana məxsus bu torpaqların yeraltı sərvətlərini talasınlar. 30 il ərzində bu torpaqlarda bir binanın belə inşa edilməməsi, ermənilərin sosial problemlərinin həll edilməməsi deyilənlərə sübutdur

Ermənistana uzanan sülh əli hələ ki, havada qalıb, İrəvan yaranmış tarixi fürsəti boşa verməkdədir. Kənar oyunçulardan qurtula bilməyən Ermənistan "sülh müqaviləsi" adlanan sənədə hər gün bir əlavələr etməklə vaxtı uzadır. Əlbəttə, bütün bunlar ona görə deyil ki, İrəvan sabah masaya daha tutarlı sənəd qoyacaq. Əksinə, Ermənistan hakimiyyəti bütün zamanlarda olduğu kimi, bu gün də onun əvəzində bütün bu problemləri həll edəcək birini gözləməkdədir. Bu, Fransa da, ABŞ da, Rusiya da, Avropa İttifaqı da və hətta İran da ola bilər. Halbuki, problemin vasitəçilərsiz həll edilmə variantını və həm də beynəlxalq norma və prinsiplərə söykənən sənədi Azərbaycan təqdim edib. Amma xəyanətkar Ermənistan o qədər xofludur ki, Bakının təqdim etdiyi və beynəlxalq ekspertlərin də təqdir etdiyi sənədə şübhə ilə yanaşır. İki dəfə, sentyabr və dekabr aylarında özünü Ermənistanın himayədarı, bəziləri tərəfindən isə "böyük bacı" adlandırılan Fransanın BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qətnamələr qəbul etmək cəhdi də fiaskoya uğradı. İrəvan bütün bunlara rəğmən möcüzənin olacağını gözləməkdədir. Vaxt isə gözləmir, məğlub Ermənistan qısa müddət ərzində Azərbaycanın sülh çağırışlarına reaksiya verməlidir, əks təqdirdə

Bu arada isə Azərbaycanla Ermənistan arasında növbəti və 44 günlük müharibədən heç də geri qalmayan, lakin qısamüddətli müharibənin olacağı barədə məlumatlar dolaşır. Xəbərin mənbəyi də okeanın o tayındadır. Müharibənin nə vaxt başlayacağı barədə hələlik heç bir tarix qeyd olunmayıb. Hələlik bütün diqqət Ukraynadakı müharibəyə fokuslanıb. Ermənistanla Azərbaycan arasında müharibənin anonsunu verənlər isə Rusiya-Ukrayna savaşının Cənubi Qafqaz münasişəsinə təsirindən danışırlar. NATO-nun baş katibi Yens Stoltenberq Qərb ölkələrini Ukraynada uzunmüddətli münaqişəyə hazırlaşmağa çağırıb. Bazar günü BBC-nin Britaniya Yayım Korporasiyasına verdiyi müsahibədə o, "Biz uzun bir səyahətə hazır olmalıyıq" deyən Stoltenberqin fikrincə, Rusiya Ukraynadakı məqsədlərindən əl çəkmək niyyətində deyil.

Stoltenberq hesab edir ki, Rusiya Federasiyasındakı səfərbərlik Rusiya qoşunlarının mümkün yeni hücum cəhdindən xəbər verir. Moskva ilə Kiyev arasında sülhün bağlanmasının mümkünlüyündən danışan NATO-nun baş katibi münaqişənin nizamlanmasına dair razılaşmanın şərtlərinin döyüş meydanındakı vəziyyətdən asılı olacağını vurğulayıb. İndi Rusiyanın xeyrinə deyil, yumşaq desək, inkişaf edir.






Xüsusən də Ukrayna ordusunun Donetsk şəhəri ətrafındakı Makiyevka qəsəbəsində rus əsgərlərinin yerləşdiyi kazarmaya endirdiyi zərbə nəticəsində yüzlərlə insan həlak olub. Ukrayna ordusunun Strateji Kommunikasiyalar İdarəsi 400 nəfərin öldüyünü bildirib. Rusiya tərəfi, əlbəttə, qurbanların sayını əhəmiyyətli dərəcədə azaldıb, lakin bu, gözlənilən idi. Hər halda, Rusiya dayanmaq fikrində deyil və bu, Kremlin təbliğatının səsləndirdiyi fikirlərdən görünür. Teleaparıcı Vladimir Solovyov həmvətənlərini 2023-cü ildə qalib gələcəklərinə inandırır. Üstəlik: "Ölümdən qorxmaq lazım deyil, çünki həyat çox qiymətləndirilir - hamımız Cənnətə gedəcəyik!" deyə zarafat edib. Bəli, ruslar ölümə belə hazırlanırlar.

Bunun fonunda Amerikanın "Foreign Policy" analitik nəşri Ukraynadakı müharibə ilə yanaşı 2023-cü ildə 10 hərbi münaqişənin olacağını proqnozlaşdırıb və Azərbaycan-Ermənistan münaqişəsinə xüsusi diqqət yetirib. Azərbaycan-Türkiyə tandemi və Ermənistan barədə proqnozlar da öz yerində. Ekspertlərin fikrincə, yeni müharibə olacaq, lakin bu müharibə 2020-ci ildəkindən qısa olacaq, lakin az dramatik olmayacaq. Bununla yanaşı, "Foreign Policy" hesab edir ki, güc balansı Azərbaycanın xeyrinə dəyişib. Ermənistan ordusu isə nə qoşunlarını, nə də silahlarını artıra bilməyib, Azərbaycan isə əksinə, sürətlə silahlanıb.

Nəticədə məlum olur ki, Azərbaycan ordusu erməni ordusundan bir neçə dəfə üstündür, xarici partyorları ilə sıx əlaqələr səbəbindən silah sarıdan xeyli yaxşı təchiz olunub və dəstəklənib. Azərbaycan tərəfi bu faktı heç vaxt gizlətməyib. ABŞ və Çin bu və ya digər dərəcədə Azərbaycanı dəstəkləyir. Fransa isə əksinə, Ermənistanı dəstəkləyir, lakin konkret addımlar atmaq fikrində deyil. Əksinə, Fransa prezidenti Emmanuel Makron Ermənistana KTMT-də, yəni həm hərbi, həm də maliyyə baxımından günü-gündən zəifləyən Rusiyanın təsir zonasında qalmağı məsləhət görür.

"Foreign Policy"nin qeyd etdiyi kimi, Avropanın Azərbaycan qazına artan tələbatı da Bakını daha böyük layihələr həyata keçirməyə həvəsləndirir. Bəli, Aİ Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı rola görə təqdir etməkdədir. Rusiya isə Bakının müstəqil hərəkət etməsini dayandırmaq üçün heç bir iş görmür. İrəvanın iddasına görə isə bu, anti-Rusiya yönümlüdür. "Foreign Policy" məlumat verir ki, Qarabağda yerləşdirilən və sülhü qorumaq üçün nəzərdə tutulmuş Rusiya hərbi kontingenti öz aktuallığını itirir. Azərbaycan bölgədə imkanlarını getdikcə artırır, Laçın yolunda nəzarəti ələ keçirməkdədir, Ermənistanla sərhəddə üstünlük əldə edib və Zəngəzur dəhlizinin açılması üçün bir an belə təzyiqini azaltmır.

Bəli, bu, "Foreign Policy"nin proqnozudur. Müəyyən dərəcədə qeyri-dəqiq də ola bilər. Amma ümumiyyətlə, bu, aşkar tendensiyaları əks etdirir. Ermənistan yenidən ərazi və insan itkiləri vermək riski ilə üzüzədir. Göründüyü kimi, dünyada heç bir dövlət Ermənistana açıq şəkildə hərbi yardım və ordu ilə dəstək verməyə hazır deyil. Hamı Ukraynadakı müharibəyə köklənib. Zaman Bakı və Ankaranın xeyrinə işləyir. Baş verən və proqnozlaşdırılan hadisələr fonunda Ermənistan cəmiyyətində isə fərqli yanaşmalar var. Ermənilər hesab edirlər ki, rusların etdiyi xəyanətin cəzası verilməlidir. Belə ki, Ermənistan ilk növbədə Putinin bütün layihələrindən imtina etməli, Aİ və NATO-ya üzvlük istiqamətində birbaşa kurs tutmalıdır. Ermənistandakı rusiyayönlü beşinci kolon isə hazırkı hakimiyyətə qarşı hücuma keçərək onları "ölkəni Rusiyadan qoparmaq" istəməkdə ittiham edib. Onlar deyirlər ki, Mirzoyanın Moskvaya getməkdən imtina etməsi və Paşinyanın Qarabağdakı rus sülhməramlılarına qarşı ittihamları bir növ Moskvaya demarşdır. Məsələn, politoloq Armen Aşotyan mətbuat konfransında bəyan edib ki, Ermənisyanın baş naziri Nikol Paşinyan Azərbaycan tərəfi ilə birgə Laçın yolunda Rusiyanı gözdən salmaq planını işə salıblar. "Bu oyunun məqsədi Rusiyaya təkcə reputasiya və uzunmüddətli geosiyasi zərbələr vurmaq deyil. Rusların xəyanətindən yorulub Qərbə üz tutan, xarici siyasətini kor-koranə Moskvanın arxasınca getməkdən ilk növbədə Paris və Vaşinqtonla sıx əlaqələr qurmağa doğru formatlaşdıran Ermənistanı qaçılmaz olaraq itirirlər. Və bu tamamilə məntiqli bir hərəkətdir. Fransada tanınmış onlarla məşhur ən böyük KİV-lərindən birində məqalə dərc edərək Qarabağdakı ermənilərə dəstək veriblər. Bundan əlavə, Fransanın əsas siyasi partiyalarının liderləri gündəlik Le Monde qəzetində birgə açıq məktub dərc edərək, ölkə prezidentini Qarabağ və Ermənistanın təhlükəsizliyini təmin etmək üçün müdaxilə etməyə çağırıblar. Fransa həm Ermənistanı, həm də Qarabağdakı erməniləri müdafiə etmək üçün bu qədər cəhdlər edir", Aşotyan bildirib.

Konstantin Zatulin, Mixail Aleksandrov, Yevgeni Satanovski kimi ermənipərəst siyasətçilər və Rusiyanın bəzi nümayəndələri Qarabağdakı erməni separatçılarının müdafiəsinə çıxıblar. Hətta, Marqarita Simonyan, Ara Abrahamyan kimi erməniləri "ağzına su almaq"da ittiham edən Ermənistan cəmiyyəti onları Rusiyada sahib olduqlarını itirməkdən qorxduqları üçün bu addımı atdıqları qənaətindədirlər. Ermənilər düşünürlər və qəti olaraq əmindirlər ki, dünya ölkələri onların atdığı bütün addımları dəstəkləməyə borcludurlar. Ermənilər Rusiyanı, xüsusilə də Putini o borclular siyahısında, həm də ön sıralarda görürlər. Düşünürlər ki, nəyin, yaxud nələrin baş verməsindən asılı olmayaraq Rusiya bütövlükdə və bütün imkanlarından istifadə etməklə Ermənistanı qorumalı, ona dəstək olmalı, yeri gələndə isə onun əvəzinə bütün hərbi arsenalı ilə müharibə aparmalıdır. Rusiyada isə başqa fikir dominantlıq edir, xüsusilə də Moskvanın dövlət, rualərın isə milli maraqları.

Rusiya ictimaiyyəti və Rusiya siyasətçiləri tərəfindən uzun illər Qafqazda Rusiyanın "for-post"u adlandırılan Ermənistanın düşdüyü faciədə günahkar axtarışında ermənilər hələ də kənar qüvvələri hədəf seçirlər. İşğalın 30 il sürməsi, dünya birliyinin bu cinayətə susması, Azərbaycan ərazilərindən təbii sərvətlərimizin xarici şirkətlər tərəfindən talan edilməsi də Ermənistana verilən dəstək hesabına mümkün olub. Ermənistanın bütün cinayətlərində həmin ölkə və güclərin də payı var. Bu gün reallığı dərk edən, Azərbaycanın gücü qarşısında geri çəkilən xarici qüvvələri Ermənistan cəzalandırmaq istəyir. Ermənistanın rəsmi və qeyri-rəsmi dairələrində Rusların xəyanətinin cəzasız qalmayacağı çağırışları eşidilməkdədir. Həmin qüvvələr Putinin Ermənistanla bağlı bütün layihələrindən əl çəkməsini istəyir, əks təqdirdə Aİ və NATO-ya üzvlük istiqamətində birbaşa kurs tutacaqları xəbərdarlığını edirlər. Növbəti addım kimi Rusiya hərbçilərini Ermənistandan və daha sonra Qarabağdan çıxarmaqla hədələyirlər. Onların yerini isə beynəlxalq qüvvələrin, ilk növbədə, Fransa və ABŞ-ın hərbçilərinin tutmasını istəyirlər. Bəli, Ermənistan rəhbərliyində və cəmiyyətində bir hallar var, hər kəslə zor dilində danışır, hədələyirlər. Amma bu iddiani tamamlayacaq güc necə, varmı?

Ermənilərin "böyük bacısı" Fransanın başı yeni dərdə girib. Bu dəfə rəsmi Parisə qarşı dirəniş göstərən müstəmləkəsi olan hansısa Afrika ölkəsi deyil, qonşusu, Avropada və dünyada söz sahibi olan İtaliya olub. Bu ölkənin yeni Baş naziri Giorgia Meloni Fransa və onun indiki prezidenti Emmanuel Makron haqqında elə şeylər danışıb ki Meloni Avropanı bürümüş miqrant axınında, dini və irqi ayrı-seçkilikdə, Afrika ölkələrinə qarşı müstəmləkəçilik siyasətinin davamlı olaraq yürüdülməsində, uşaq əməyindən istifadədə Parisi ittiham edib və Makronun siyasətini kəskin pisləyib. Hətta Liviyaya hücumun və bu ölkənin itqisadiyyatının və neft-qaz sektorunun darmadağın edilməsində əsas məqsədin İtaliya ilə əlaqələrin kəsilməsi olduğunu bildirən baş nazir Fransanın əməllərində bir neo-imperiya siyasəti durduğunu deyib.

Beləliklə, Avropa Birliyində yeni qarşıdurmaların olacağını çox gözləməyəcəyik. Tərəflərdən birinin Fransa olacağı isə gün kimi aydındır

**V.VƏLİYEV**



# 1923 - 100 ilin fövqündə - 2023

**“Azərbaycan Respublikasında 2023-cü ilin ”Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü ilin ”Heydər Əliyev İli” elan olunması və bu il Ulu Öndərin 100 illik yubileyinin Azərbaycanda dövlət səviyyəsində təntənəli şəkildə qeyd ediləcəyi dahi şəxsiyyətə böyük ehtiramın, yüksək qiymətin əyani göstəricisidir.**

Bəli, bu il Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin banisi, görkəmli siyasi və dövlət xadimi, Azərbaycan xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onun müstəqilliyinə qovuşmasına töhfə vermiş qüdrətli şəxsiyyət Heydər Əliyevin ilidir. Bu böyük şəxsiyyətin anadan olmasının 100 illiyi fövqündə ilboyu onun həyat və fəaliyyətindən söhbət açacaq, xalqımızın tale payı olan dahinin Azərbaycan üçün misilsiz xidmətlərindən bəhs edəcək, gənc nəsillərimizə bənzərsiz insanın millətinin xilaskarı olmasından danışacağıq. Danışacağıq ki, gələcək nəsillər də Ulu Öndərin xalqımız üçün hər zaman qürur duyduğumuz şəxsiyyət olduğu haqqında məlumatlı olsunlar.

## Heydər Əliyev Azərbaycanın rəmzidir

2023-cü ilin ”Heydər Əliyev İli” elan olunması barədə imzalanan Sərəncamda deyilir: Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Bəli, Heydər Əliyev ona görə Azərbaycanın rəmzinə çevrilmişdir ki, öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Tarixi faktlara nəzər salarkən görmək olur ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Xalqın taleyinin bu mərhələsində - azadlıq və müstəqillik duyğularının artdığı həmin illərdə Ulu Öndər həmin duyğuları alovlandırdı ki, bu da illər sonra müstəqilliyimizin bərpası ilə nəticələndi.

Hələ 1969-cu il iyulun 14-də ulu öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərkən ölkənin ictimai-siyasi həyatında anarxiya və hakimiyyətdaxili intriqalar baş alıb gedirdi. Azərbaycan sosial-iqtisadi cəhətdən durğunluğun və dərin böhranın yaşandığı geridə qalmış ölkə idi.

Ulu Öndər Heydər Əliyev dövlət təhlükəsizliyi sistemində işlədiyi ilk gündən əldə etdiyi imkandan istifadə edib böyük vətənpərvərlik və uzaqgörənlik ruhunda öz doğma xalqına xidmət etmişdi. DTK-nın rəhbər strukturlarındakı fəaliyyəti dövründə bu orqanın azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərən Ümummilli Liderimiz Heydər Əliyev respublikaya rəhbərliyə başlayan kimi qısa müddətdə idarəçilik sistemini xeyli möhkəmlətmiş, sosial-iqtisadi tədbirlər həyata keçirmiş, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başlamışdır. Aparılan ardıcıl mübarizə nəticəsində qısa müddətdə Azərbaycanda əlverişli sosial-iqtisadi və mənəvi-siyasi şərait yaradılmışdır.

1970-1980-ci illərdə neft-qaz hasilatı sənayesinə və neftayırma zavodlarının yenidən qurulmasına 4 milyard manatdan çox vəsait qoyulmuşdur. Nəticədə, 1980-ci illərin sonunda Azərbaycan keçmiş SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə iki hissəsini verir, neft maşınqayırma sahəsində ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. 1969-1982-ci illərdə 213 iri sənaye müəssisəsi tikilmiş, sənaye məhsulu istehsalı 2,7 dəfə artaraq əvvəlki 50 ildə olduğu qədər - 101,5 milyard manatlıq məhsul istehsal edilmiş, Azərbaycan sənaye məhsulunun istehsal artımına görə SSRİ-də birinci yerə çıxmışdı. Bakı SSRİ-nin əsas sənaye mərkəzlərindən və beş böyük şəhərindən birinə çevrilmişdi. Azərbaycanın 120-dək müəssisəsində istehsal olunan 350 növ məhsul dünyanın 80 ölkəsinə satılırdı. İxracla idxal arasında 1,5-2 milyard manatlıq müsbət saldo yaranmışdı.

Meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsaitin məbləği (2 milyard manat) əvvəlki 50 il ərzində bu sahəyə qoyulan vəsaitdən 2,5 dəfə çox olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmiş, məhsul artımı 11,1 milyard manata çatmışdı. Bu dövrdə 7,7 min kilometr şose, 260 kilometr dəmir yolları çəkilmişdi. 1985-ci ildə Bakı limanından dünyanın 120 limanına gəmilər səfər edir, paytaxtdan respublikanın 12, SSRİ-nin 80 şəhərinə təyyarələr uçurdu. Bakı metropoliteninin 8 yeni stansiyası istismara verilmişdi.

1969-1982-ci illərdə 18,5 milyon kvadratmetr mənzil sahəsi (376,1 min yeni mənzil) istifadəyə verilmiş, 2,2 milyondan çox adam, yeni respublikanın hər üç sakinindən biri yeni evdə məskunlaşmışdı. 1970-1982-ci illərdə iqtisadiyyatın inkişafına 23,9 milyard manat vəsait qoyulmuşdu ki, bu da əvvəlki 50 ildəkindən 1,4 dəfə çox idi. Bu zaman milli gəlirin yalnız artım hissəsi 5 milyard 370 milyon manat təşkil etmiş, onun adambaşına düşən hissəsi 2 dəfə artmış, 633 min yeni iş yeri yaradılmışdı.

Məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, 6 yeni ali məktəb yaradılmışdı. 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 15 mindən artıq azərbaycanlı gənc təhsil alaraq yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmışdı. 1971-ci il iyul ayının 28-də Cəmşid Naxçıvanski adına hərbi məktəb açılmış, 1970-80-ci illərdə SSRİ-nin ali hərbi məktəblərində iki mindən çox azərbaycanlı zabit hazırlanmışdı. Qısa müddətdə SSRİ müdafiə sənayesinin Azərbaycanda on bir böyük zavodu tikilmişdi. 1970-1980-ci illərdə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 44 muzey, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi. 1980-ci ilin sonunda respublikada artıq ümumi kitab fondu 31,7 milyon nüsxə olan 3858 kütləvi kitabxana, 3212 klub və mədəniyyət evi, 2300 kino qurğusu var idi. 21 min yerlik xəstəxana və poliklinikalar istifadəyə verilmişdi.

1978-ci il Konstitusiyasında Azərbaycan dilinin ali səviyyədə rəsmi dil statusu alması, oncildlik Azərbaycan Sovet Ensiklopediyasının, üçcildlik ”Müasir Azərbaycan dili” dərsliyinin işıq üzü görməsi, ”Türkologiya” jurnalının nəşrə başlaması, Azərbaycan ziyalılarının imperiyanın təqiblərindən qorunması, görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət mükafatlarının, fəxri adların verilməsi, onların yubileylərinin keçirilməsi, abidələrinin qoyulması, milli ruhlu tarixi filmlərin çəkilişi, mədəniyyət kollektivlərinin və rəssamların qastrol və sərgilərinin təşkili və sair bu kimi faktlar 1970-80-ci illərdə milli-mənəvi həyatın və milli özünüdərk prosesinin sürətli dirçəlişini səciyyələndirirdi.

Beləliklə, ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə desək: ”Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır”. Bütün bu göstəricilər Ulu Öndərin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə də daha fərqli bir şəkildə əldə olunmuşdur. Belə ki, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan yenidən qurulmuş, Azərbaycanda Yeni Azərbaycan yaradılmışdır.

## Ümummilli Liderimiz Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi...

1990-cı ilin yanvar ayında Azərbaycanın ayrı-ayrı rayonlarının, eləcə də Naxçıvanın sərhədlərində ermənilər tərəfindən münaqişələr törədilirdi. Yanvar ayının 18-də keçmiş SSRİ-nin Daxili Qoşunlarının iştirakı ilə Naxçıvanın Kərki kəndi işğal olunmuşdu. Ermənilərin Sədərək istiqamətində mütəmadi hücumları başlamışdı və vəziyyət gündən-günə gərginləşirdi. Yanvarın 20-də Bakıda törədilən faciə ilə Naxçıvanın sərhədlərində münaqişələrin başlanmasının üst-üstə düşməsi isə ermənilərin havadarlarının əvvəlcədən hazırladıqları böyük plan üzrə cərəyan edirdi. Belə ki, burada məqsəd diqqətin Bakı hadisələrinə yönəlməsi fonunda Naxçıvanın əhalisi arasında ümidsizlik yaradaraq bölgənin boşaldılması və erməni işğalı üçün şəraitin yaradılması idi. Digər tərəfdən isə Naxçıvanı ölkənin paytaxtı ilə birləşdirən yollarda da ermənilər tərəfindən münaqişə törədilir, Bakı-Naxçıvan qatarları dayandırılır, günlərlə işləmir, maşinistlətə qarşı vəhşiliklər edilirdi. Naxçıvan blokada vəziyyətinə salınırdı. Bütün bu əməllərin arxasında kimin olduğu, kimin planı və gücü ilə həyata keçirilməsi 20 Yanvar hadisələrindən sonra Naxçıvana qayıdan və burada yaşayan ulu öndərə gün kimi aydın idi.

Elə buna görə də Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilən sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olunarkən məsələ ilə bağlı çıxış edən ulu öndər Heydər Əliyev deyirdi: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır..."

Beləliklə, Ulu Öndər 1990-cı ildə Naxçıvana qayıtmasaydı, Naxçıvan indi yox idi. Qədim diyar həmin illərin qurbanı olmuş, Qarabağ kimi işğal edilmiş, naxçıvanlılar isə aclıq-səfalət içərisində məhv olmuşdular. Heydər Əliyevin Naxçıvana gəlməsi ermənilər tərəfindən sərhədlərində müharibə aparılan və blokadaya salınan diyarın xilası oldu. Və son 30 ildə Naxçıvanın inkişafı da 1990-cı illərdə Ulu Öndər tərəfindən həyata keçirilən və gələcəyə hesablanmış tədbirlərin nəticəsində reallaşmışdır. Bununla əlaqədar Prezident cənab İlham Əliyevin də dəyərli fikirlərini xatırlamaq yerinə düşər: "Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Naxçıvanın uğurlu inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərmişdir və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülmüşdür. 1990-cı illərin əvvəllərində - Naxçıvan üçün ən ağır illərdə ulu öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilmişdir. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar".

Azərbaycan tarixini, xüsusilə də bu tarixin hər birimizə yaxın olan mücadilə və mübarizələrlə dolu XX əsr səhifələrini vərəqləyərkən gözlərimiz qarşısında müstəqillik yolunda axıdılan qanlar, itirdik-lərimiz canlandıqca düşünürsən ki, müstəqil olmaq heç də asan deyilmiş. Müstəqilliyi əldə etdikdən sonrakı dövrə nəzər salarkən ona uzanan əlləri, gözü götürməyənlərin təxribatlarını görəndə isə belə bir qənaətə gəlirsən ki, həqiqətən də, müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş.

Məlumdur ki, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Ümummilli Liderimiz Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyət dövründəki kimi olacaqdı.

Bəli, böyük çətinliklə bərpa olunan müstəqilliyimiz ulu öndərin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Ulu öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə il-



dən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

## Mənəvi və siyasi varis

Cənab İlham Əliyev Ümummilli Liderimiz Heydər Əliyevin mənəvi və siyasi varisidir. Əsl azərbaycanlı, xalqını canından artıq sevən, vətənpərvər insan olan, həyatının sonunadək bu xalqın, bu millətin yolunda cəfa çəkən ulu öndərimizin. Elə buna görə də xalq Onu özünə Ümummilli Lider seçdi. Taleyini Ona tapşırdı. Müstəqilliyini Ona etibar etdi. Beləliklə də, müstəqilliyimiz təhlükədən, itirilməkdən xilas oldu. Torpaqlarımızın daha da geniş miqyasda itirilməsinin qarşısı alındı. Ölkəmiz dünyada tanındı, dünya dövlətləri ilə iqtisadi əlaqələr quruldu. 70 illik imperiya məngənəsindən qurtulan, bütün sahələrdə tənəzzülə uğrayan Azərbaycanda yeni bir Azərbaycan quruldu. Azərbaycan, bütövlükdə, ulu öndərimizin əsərinə çevrildi. Çox təbii ki, belə bir liderin övladı da cənab İlham Əliyev olacaqdı. Dövlətçilik qabiliyyəti, idarəetmə bacarığı, siyasi-hərbi savadı ilə dünyanın həsəd apardığı lider cənab İlham Əliyev. Azərbaycan xalqı qürur duyur ki, bu gün ölkəmizə belə bir atanın övladı, mənəvi və siyasi varisi rəhbərlik edir.

Ümummilli liderin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və müasir dövrə uyğunlaşdıran Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı lider olduğu bir daha təsdiqini tapır. Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi aləmində özünəməxsus yeri ilə seçilir. Bütün dünya dövlətləri onunla hesablaşır, ona hörmət və ehtiramla yanaşırlar. Bu gün dünyanın hər yerində söhbət Azərbaycandan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən gedir.



2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciət də təkcə ulu öndərin deyil, bütövlükdə, Azərbaycan xalqının cənab İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu öndər bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Zaman və tarix sübut edib ki, ulu öndərimiz siyasətdə heç zaman yanılmayıb. Ötən 20 ildə bunun bir daha şahidi olduq. Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə şahid olduq. Sıravi vətəndaşdan tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan böyüyə hər kəsə qayğıda, ehtiramda gördük. Ölkə rəhbərinin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına qayğısında gördük. Ötən 20 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsində, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsində gördük. Nə üçün əsasən, ordu quruculuğu məsələsinin üzərinə gəldim? Çünki ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayırdılar. Onları ən çox düşündürən yurd yerlərinə qovuşmaq idi. Nə qədər inkişaf etmiş bir ölkədə yaşasalar da, hərtərəfli qayğı ilə əhatə olunsalar da, qaçqınlıq və köçkünlük acısından, yurd həsrətindən özlərini narahat hiss edirdilər. Onlar öz torpaqlarını istəyirdilər. Qarabağ Azərbaycanın yarası idi. Bu yara sağalardısa, Azərbaycan tam ola bilərdi. Bütün bunlar isə dövlətimizin başçısının daim diqqətində olan məsələlər idi.

## Ata vəsiyyətini gerçəkləşdirən övlad

"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!",- deyən Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi. Bu gün müstəqil Azərbaycanımız etibarlı əllərdədir. 1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ulu öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün ulu öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizidir. O mənada ki, xalqı çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır. Xalq bir gün öz əzəli torpaqlarını da geri alacaqdı. Həmin günün ulu öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss etsin",- deyən dövlət başçısının əzmini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi. 10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixinə yazdığı yeni salnamə oldu.

Cənab Prezidentimizin ulu öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu isə ölkəmizdə hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır.

Tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri və ölkəmizin bugünkü inkişafı ötən 20 ilin hər anında Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, bu gün bütün dünyanın diqqətini özünə yönəldən məqamlardır. Azərbaycanın güclü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidliyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir. Bəli, qürur duyuruq ki, Ulu Öndərimizin siyasi yolu uğurla davam etdirilir. Qürur duyuruq ki, 100 ilin fövqündə Azərbaycan bu qədər nailiyyətlər əldə edib.

***Mətanət MƏMMƏDOVA***





# Ermənistan üçün QORXULU PROQNOZLAR

**Ermənistanın öz məkrli niyyətlərindən, pozuculuq siyasətindən əl çəkmədiyi hər addımda özünü göstərir. Bunu nəinki Azərbaycan tərəfi, hətta bütün dünya görür və etriaf edir. Sonuncu dəfə Rusiya XİN rəhbərinin, Sergey Lavrovun, "Ermənistan bu dəfə də öz şansını itirdi", deməsi təsadüfi deyildi və işğalçı ölkənin yanlış yolla davam etdiyi qənaətində olduğunu göstərir. İndi Ermənistanın təkcə Rusiya tərəfinin deyil, dünyanın bir çox ölkələrinin qınağına çevrildiyi bir-birinin ardınca ortaya çıxır və bu, bir qorxulu proqnoz olaraq erməniləri bərk narahat edir.**

Bəli, 44 günlük müharibə və bu müharibənin məntiqi nəticəsi təsdiq etdi ki, işğalçı ölkə istənilən sahədə, xüsusən də, hərbi sahədə Azərbaycanla müqayisəyə belə gələ bilməz və qarşıdurma ermənilərin böyük itkiləri bahasına başa çata bilər. İllərlə öz silahlı qüvvələrinin möhtəşəmliyi mifini yaradan Ermənistan cəmi 44 gün ərzində Azərbaycan qarşısında diz çökdüsə, artıq uzun-uzadı izahata ehtiyac qalmır və bu, açıq-aşkar göstərir ki, qüvvələr arasında çox böyük, hədsiz böyük fərq var və Ermənistanın istənilən hücum cəhdi bu işğalçı ölkəyə ağır nəticələr vəd edir.



İndi erməni cəmiyyətində yeni müharibə barədə fikirlərə bütün dünya gülür, istehza ilə yanaşır. Bu, belə də olmalıdır, çünki vəziyyətin necə, qüvvələrin hansı nisbətdə olduğu heç kim üçün sirr deyil. Bir-birinin ardınca dünyaca məşhur nəşrlərin bununla bağlı təhlilləri, verdikləri proqnozlar deyilənləri təsdiq edir. Təsdiq edir ki, bütün dünya münaqişənin yenidən başlayacağı təqdirdə, Ermənistanın hansı dəhşətlərlə, hansı qorxulu məqamlarla qarşılaşacağını görür və bunu da açıq-aydın şəkildə etiraf edir.



Amerikanın "Foreign Policy" analitik nəşri 2023-cü ildə sülh gözləyən 10 hərbi münaqişənin olacağını proqnozlaşdırıb. Nəşrdə həmçinin Azərbaycan-Ermənistan münaqişəsinə xüsusi diqqət yetirilib. Ekspertlərin fikrincə, yeni müharibə gözləniləndir və qeyd olunduğu kimi, çox güman ki, yenidən müharibə olacaq. Həmçinin qeyd olunur ki, bu dəfə müharibə 2020-ci ildəki 44 günlük müharibədən daha qısa olacaq, lakin heç də daha az dramatik olmayacaq və Ermənistanın itkiləri daha çox olacaq.

"Foreign Policy" hesab edir ki, 44 günlük müharibədən sonra güc balansı yenə də Azərbaycanın xeyrinə dəyişib. Nəşr açıq şəkildə qeyd edir ki, Ermənistan tərəfi hərbi baxımdan heç bir irəliləyişə nail olmayıb. Bildirilir ki, işğalçı ölkə nə hərbçilərinin, nə də silahlarının sayını artıra bilməyib. Doğrudur, müxtəlif qanunsuz yollarla Qarabağ ərazisinə silah-sursat daşına bilər, amma bu, bir ölkənin hərbi potensialı baxımından heç də nəzərə alınacaq deyil. Yəni, Ermənistanın hərbi imkanlarının artmadığı göz önündədir və bunu bütün dünya görür. Eyni zamanda, bütün dünya görür ki, Azərbaycan günü-gündən hərbi potensialını, ordusundakı hərbçilərin sayını, silahlarını artırır və Ermənistan bu dəfə Azərbaycanla müharibə etsə, daha böyük itkilərlə, daha acınacaqlı vəziyyətlə qarşılaşmalı olacaq.

Reallıqlar göz önündədir və Azərbaycan Ordusunun düşmən tərəfin silahlılarından dəfələrlə üstün olduğu açıq şəkildə etiraf olunur. Bunu dünya ölkələri yaxşı bilirlər. Eyni zamanda, Azərbaycan artıq dəstəklənir və Ermənistanın heç nəyə ümid etməyə bir şansı belə qalmır. ABŞ və Çin bu və ya digər dərəcədə Azərbaycanı dəstəkləyir. Bunu Ermənistan mətbuatı da yazır və hətta qeyd edir ki, Fransa guya Ermənistanı dəstəkləyir, lakin konkret addımlar atmaq fikrində deyil. Qeyd olunur ki, Fransa prezidenti Emmanuel Makron Ermənistana KTMT-də, yəni həm hərbi, həm də maliyyə baxımından günü-gündən zəifləyən Rusiyanın təsir zonasında qalmağı məsləhət görür. Bir sözlə, ermənilər görürlər ki, Fransa prezidenti özü bu işğalçı ölkəni də, onun problemlərini də başından atmaq fikrindədir. KTMT-də qalmaq tövsiyəsi də məhz bunu təsdiq edir.

Eyni zamanda, "Foreign Policy" haqlı olaraq qeyd edir ki, Avropanın Azərbaycan qazına artan tələbatı da Bakının gücünü, qüdrətini artırır, hətta söz sahibi edir. Bəli, Avropa İttifaqında Azərbaycanın "Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində" oynadığı rola görə səsləndirilən fikirlər deyilənləri təsdiq edir. Həqiqətən etiraf etmək lazımdır ki, Azərbaycan Avropa üçün maraqlı tərəfdir. Hər mənada ölkəmiz işğalçı bir ölkə ilə müqaisəyə gələcək deyil. Heç bir faydalı resursa malik olmayan bir ölkə hansısa dövlət üçün maraqlı ola bilməz. Hansısa bir dövrdə qısa şəkildə dəstək verilsə də, bunun sona qədər olacağı ağılasığan deyil. Bu baxımdan, ermənilərin özlərinin də ümidləri tükənib və bu zamana qədər arzuladıqlarının puç olacağına tam əminlikləri də göz önündədir.

Hətta "Foreign Policy" bildirir ki, Qarabağ ərazisində yerləşdirilən və sülhü qorumaq üçün nəzərdə tutulan Rusiya hərbi kontingenti belə öz aktuallığını itirir. Qeyd olunur ki, sülhməramlıların bölgədə olması heç nəyə təsir və dəlalət etmir. Təbii ki, bu qənaətə gəlmək üçün nəşrin məntiqi əsası var və Azərbaycan həqiqətləri bunun üçün yetərlidir. Əlbəttə ki, sülhməramlıların bölgədə olması öz aktuallığını itirməkdədir və yaxın zamanda həmin kontingentin ərazini tərk edəcəyi təkzibedilməz reallıq olaraq qəbul edilir. Bu reallığı Rusiya prezidentinin belə öz nitqində ifadə etdiyini hamımız yaxşı xatırlayırıq. Əgər Putin özü belə bir qənaətdədirsə, deməli, nəşrin sülhməramlılarla bağlı həmin nəticəsində qeyri-adı heç nə yoxdur və birmənalı şəkildə həqiqəti əks etdirir. Bu isə ermənilər üçün heç də arzuolunan deyil, hətta dəhşətli, qorxulu proqnozlar deməkdir.

Bəli, "Foreign Policy"-nin proqnozu belədir və ermənilər üçün heç də arzuolunan hesab edilmir. Hətta kürklərinə də birə salıb. Əks halda mətbuat səhifələrində bu barədə yazılar bir-birini əvəz etməzdi. Bir çoxları bunun bir proqnoz olduğuna, qeyri-dəqiq ola biləcəyinə inanmaq arzusundadırlar. Amma reallıqlar göz önündədir və "Foreign Policy" əbəs yerə bu qənaətə gəlməyib. Yenə də Ermənistan itkilərlə, ərzaq qıtlığı riski ilə üzüzədir. Dünyada heç bir ölkə, heç kim belə Ermənistana artıq açıq şəkildə istər hərbi yardım, istərsə də hər hansı formada yardım etmək fikrində deyil, çünki bunun mənasız olduğu hər kəsə bəllidir. Bu qədər problemlər qarşısında hansısa bir ölkənin revanş haqqında düşünməsi, müharibə istəyi axmaqlıqdan başqa bir şey deyil.

Hazırda bütün kartların Bakının əlində olduğu dəfələrlə vurğulanır və demək olar bütün politoloqlar, siyasətçilər bu qənaətdədirlər ki, istənilən mümkün sövdələşmədə birmənalı şəkildə Azərbaycan qazanacaq, özü də çox. İstənilən müstəvidə Azərbaycanın dəfələrlə üstün olduğu artıq açıq-aşkar etiraf olunur. Ələlxüsus etiraf olunur ki, Azərbaycan öz məqsədlərinə hərbi yolla nail olmağa çalışsa belə yenə də qazanacaq və daha çox fayda görəcək. Siyasətçilər, politoloqlar, ekspertlər isə xəbərdarlıq edirlər ki, Ermənistan danışıqlardan boyun qaçıqdığı təqdirdə müharibə qaçılmazdır və bu dəfə işğalçı ölkə özünü tamamilə məhvə sürükləmiş olacaq. Azərbaycan üçünsə Ermənistanın danışıqları davam etdirməsi, yaxud boyun qaçırması zərrə qədər fərq etmir, ölkəmiz güc yolu ilə də olsa istədiyini əldə edəcək, istədiyinə nail olacaq. Amma hadisələrin belə bir ardıcıllığı Ermənistan üçün çox dəhşətli, çox qorxulu proqnozlar deməkdir.

***İnam Hacıyev***

# Tolerantlıq mühitində xristian icmasının Milad bayramı

**İlham Əliyev: "Azərbaycanın digər etnik-dini qrupları kimi xristian həmvətənlərimiz də öz adət-ənənələrini, dil və mədəniyyətini yaşadaraq ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir"**

"Tarixən dostluq və qardaşlıq mühitinin, yüksək birgəyaşayış mədəniyyətinin hökm sürdüyü Azərbaycanda ayrı-ayrı xalqların və dini etiqadların nümayəndələri əsrlərlə sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Bu gün dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan və sivilizasiyalararası münasibətlərin inkişafına əhəmiyyətli töhfələr verən ölkəmizdə dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, hər kəs bərabər hüquq və azadlıqlara malikdir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını Milad bayramı münasibətilə təbrikində bildirib. Bildiyimiz kimi, Azərbaycanın pravoslav xristian icması Milad bayramını hər il təntənə ilə qeyd edir. Milad bayramının yeniliyin, paklığın, mərhəmət və xeyirxahlıq duyğularının rəmzi olduğunu bildirən Cənab Prezident bu müqəddəs gün münasibətilə bayram təbriklərini yetirərək, ailələrinə xoşbəxtlik, süfrələrinə bol ruzi-bərəkət arzulayıb.







Qafqazda ilk xristian məbədlərinin ölkəmizin ərazisində yaranması təsadüfi hal deyil. Azərbaycan bir neçə pravoslav kilsəsi fəaliyyət göstərir. Dünya dövlətləri Azərbaycanın bu sahədəki təcrübəsinə böyük mariq götərirlər. Belə ki, Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir və təsadüfü deyil ki, Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. "Cəmiyyətimizdə yüz illər boyu təşəkkül tapmış mədəni müxtəlifliyin, yüksək humanizm prinsiplərinin, zəngin tolerantlıq ənənələrinin qorunub saxlanılması və təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin prioritet istiqamətlərindəndir", - deyə Cənab Prezident təbrikində qeyd edib.



### "RESPUBLİKAMIZDA GEDƏN BÖYÜK İNKİŞAF VƏ QURUCULUQ PROSESİNDƏ VƏTƏNDAŞLIQ BORCUNU LAYİQİNCƏ YERİNƏ YETİRİRLƏR"

Əlbəttə ki, Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir. Bütün dünya ölkələri bu mühitə maraq göstərməsi də məhz mövcud mühitdən qaynaqlanır. Xalqımızın tarixi keçmişindən qalan tolerantlıq və multikulturalizm prinsipləri ölkəmizin qanunvericiliyində də öz əksini tapıb. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı, qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilir. Dövlət başçısı "Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın digər etnik-dini qrupları kimi xristian həmvətənlərimiz də öz adət-ənənələrini, dil və mədəniyyətini yaşadaraq ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir, respublikamızda gedən böyük inkişaf və quruculuq prosesində vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər", - deyə bildirib. Müasir gərgin beynəlxalq şəraitdə Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, praktiki, elmi, təbliğati və təşviqati istiqamətdə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Milli mənəvi dəyərlər, azərbaycançılıq, milli, dini dözümlülük, tolerantlıq sosial-iqtisadi inkişaf və dövlətin öz siyasi xəttinə güvənməsi davamlı inkişafın və uğurların əsas amilləridir. Əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, protestantlar, yəhudilər daxil olmaqla, müxtəlif etnik və dini qruplar əsrlərdir sülh, qardaşlıq, qarşılıqlı hörmət şəraitində yaşayır. Burada etnik və dini qruplar arasında hər zaman güclü əlaqələr olub.

### VAHİD BƏŞƏRİYYƏTİN RƏMZİ

Bütün etnik və dini qruplar öz bayramlarını uğurla qeyd edirlər. Pravoslav xristian icmasının Milad bayramı Müqəddəs gecədən başlayır. Həmin gün pravoslavlar üçün 40 günlük pəhrizin sonuncu günü və Milad bayramına hazırlıq dövrüdür. Günəş batandan sonra bütün ailə masa arxasında toplaşır. Süfrəyə İsa peyğəmbərin həvarilərinin sayına uyğun olaraq 12 pəhriz yeməyi qoyulur və bu yeməklərin hər birindən mütləq dadmaq lazımdır. Masada canlı alov - şam yanır. Müqəddəs gecənin ən başlıca yeməyi kutyadır. Adətən, onu buğdadan hazırlayırlar. Amma üyüdülməmiş başqa yarmadan da istifadə etmək olar. Taxıl dənləri vahid bəşəriyyətin rəmzidir.

Deyilənlərə görə, Milad bayramında evdən darçın və vanil ətri gəlməlidir. Yəni məxsusi yemək olmadan bu bayramı təsəvvür etmək mümkün deyil. Qədim zamanlarda daha bir ənənə olub: bayram günlərində yalnız təzə libaslar geyinirdilər. Məhz bu gecədə su, təbiətin özü və hava sanki sehrlə dolaraq bütün arzuların həyata keçməsinə kömək edir. Milad ənənələrinə görə, bayram günlərində insanlar vaxtlarını şən keçirməli, qəm-qüssədən uzaq olmalı, həyatdan zövq almalıdırlar.

Azərbaycanın pravoslav xristian icması da Milad bayramını təntənə ilə qeyd edir. Təsadüfi deyil ki, Qafqazda ilk xristian məbədləri məhz ölkəmizin ərazisində yaranıb. Müxtəlif dinlərin nümayəndələri əsrlər boyu torpağımızda dinc yanaşı yaşayır, öz adət-ənənələrini sərbəst şəkildə icra edirlər. Azərbaycanda heç vaxt milli və irqi zəmində ayrı-seçkilik, dini dözümsüzlük olmayıb. Digər konfessiyaların nümayəndələri kimi, xristianlar da cəmiyyətimizin tamhüquqlu üzvüdürlər. Ölkədə bir neçə pravoslav kilsəsi fəaliyyət göstərir.

Həqiqətən də. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

Çoxəsrlik tolerantlıq ənənələrinin mövcud olduğu cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin, dini-mənəvi irsin və multikultural dəyərlərin qorunub-saxlanılması və daha da inkişaf etdirilməsi həyata keçirilən dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır".

Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, ən çətin anlarda belə bunu əməli fəaliyyətdə sübut ediblər. Bu gün ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin sülh, əmin-amanlıq şəraitində yaşaması fikirlərimizi əsaslandırır.

**ZÜMRÜD BAYRAMOVA**

# Ləyaqətini, abırını, mənliyini qoruyub saxlamağı bacaran sənətkar

Artıq bir neçə ildir ki, hər ilin əvvəli, daha dəqiq desək, yanvar ayının 9-da yaxın dostum, görkəmli sənətkar, Xalq artisti İlham Namiq Kamalın doğum günü münasibəti ilə məqalə yazıram. Bu bir növ ənənə halını alıb. Bu dəfə də ənənəyə sadiq qaldım. İlham Namiq Kamal 73 yaşını adlayıb, 74 yaşına-müdrikliyin daha yüksək mərhələsinə qədəm qoyub. Məqalə ilə bağlı İlhama zəng edib, fikrimi ona bildirdim. Əvvəl etiraz etsə də, sonra razılaşıb, məni teatra dəvət etdi. Teatra yollandım. Teatrın inzibati qapısında gözətçilər mənim İlham müəllimin yanına gəldiyimi biləndə, dedilər ki, bilirik. Deməli, sənətkar mənim gələcəyimi onlara deyib. İkinci mərtəbəyə qalxdım. Sənətkarın qrim otağının qapısı açıq idi. Mənim addım səslərimi eşidən kimi, İlham qapıya çıxıb, məni gülərüzlə qarşılayaraq, içəri dəvət etdi, salamlaşıb, görüşdük. Dostumun qrim otağı səliqə-səhmanı ilə göz oxşayır, masanın üzərində isə, Moskva şəhərinin Babayev fabrikinin müxtəlif şokolad konfetləri və çərəzlər var idi. Mən məqalə haqqında nəsə demək istəyirdim ki, sənətkar sözümü kəsib: -Tələsmə, yazı, müsahibə, məqalədən qabaq çərəzlərdən ye. Nə içirsən, çay, qəhvə. De, bufetə zəng vurum, gətirsinlər. Mən çay içəcəyimi dedim. İlham teatrın bufetinə zəng vurub, çay sifariş etdi. Sənətkar bir daha mənə çay gətirilincə, çərəz yeməyi məsləhət gördü. Bufetdən bir çaynik çay, iki armudu stəkan gətirdilər. Sənətkar çay gətirən xanıma minnətdarlır edib, onu hörmətlə yola saldı və gəlib, çayın necə dəmləndiyinə baxandan sonra, stakanlara çay süzdü. Mən düşündüm ki, elə sənətkarla çay içərək, söhbət etsək yaxşı olar. Sənətkarı söhbətə tutub, telefonun səsyazanını işə saldım. Mən danışır, o qulaq asırdı. Amma hiss edirdim ki, fikri ayrı yerdədir. Mən çaydan bir qurtum içib:

-İlham, sənin necə insan, necə bir sənətkar olduğunu ölkədə bilməyən yoxdur. Sən gözütox, qismətinlə razılaşan, birinci növbədə özünə, daha sonra ətrafına qarşı tələbkar olan, düşündüklərini deyən və yeri gələndə yazan insansan. Mən bilirəm ki, sən teatr və kino haqqında dərin bilik və bacarığını gənclərə öyrətməyə həmişə hazırsan. Onu da bilirəm ki, sən də çoxları kimi, son dövrlərdə teatr, kino və ümumən mədəniyyət sahəsində baş verənlərdən narahatsan...

İlham, adəti üzrə konfet yemədən bir-iki qurtum çay içəndən sonra, mənim başladığım mövzunu davam etdirməyə başladı: -Çingiz, sən, yaxşı bilirsən ki, mən təbiət etibarı ilə narahat adamam. Təbii ki, mədəniyyət sahəsində baş verənlərdən narahat olmaya bilmərəm. Bilirsən ki, mən bir neçə ay bundan əvvəl teatr sahəsinin inkişafı ilə bağlı fikirlərimi yazıb, mətbuatda çap etdirmişdim.

### Məqalə

"Teatrı niyə sevmirik? " adlanırdı. Yazımda sənətdə struktur dəyişikliklərin və islahatların aparılmasının, gənclərə dəstək verməyin vacibliyini qeyd etməklə yanaşı, yaşlı sənətkarları da unutmamağı tövsiyə edirdim. Biz dünya təcrübəsindən istifadə etməliyik. Səhnəyə çıxıb, rolunu canlandırmağı bacaran, sağlamlığı buna imkan verən, hər bir yaşlı sənətkar teatra və kinoya lazımdır. Mən qəti bilirəm ki, gənclər yaşlı sənət nümayəndələri ilə birlikdə səhnəyə çıxanda, onlardan əyani "dərs" ala bilərlər. Səhnədə ekranda illərin təcrübəsini qazanmış sənətkarları sənətdən uzaqlaşdırmaq olmaz...

Mən onun sözlərini təsdiq etdim:

-Əlbəttə, yaşlı sənət nümayəndələrini teatrdan və kinodan uzaqlaşdırmaq düz deyil.

Sənətkar adəti üzrə çayını konfetsiz içə-içə, söhbətini davam etdirir:

-Mən bu yazıdan sonra sabiq mədəniyyət naziri ilə görüşüb, düşüncələrimi ona da çatdırmağı vacib hesab etdim. Ona bildirdim ki, mən sənətdə sözümü demişəm və dövlətimiz tərəfindən heç vaxt diqqətdən kənarda qalmamışam. Çalışdığım, teatr və kino sənətinin inkişafı və yetişməkdə olan gənclərin gələcəyidir. Mən sənətdə ilk addımlarını atan hər bir gəncə dəstək olmağa hazıram. Vaxtı ilə sənətdə yaşlı sənətkarlar mənə dəstək olublar. Mən də bu estafeti davam və inkişaf etdirmək istəyirəm. Gənclərimiz müasir texnologiyaları, xarici dilləri gözəl bilirlər. Mən bir ağsaqqal sənət nümayəndəsi kimi bunu alqışlayıram. Dövr dəyişib, müasirliyi və yeniliyi qəbul etməliyik. Amma biz keçmişi də unutmamalıyıq. Azərbaycan teatr və kinosunun mürəkkəb inkişaf tarixi olub. Saysız-hesabsız sənətkarlar ordusu milli teatr və kino sənətinin inkişafı naminə, artıq tarixə çevrilmiş sənət nümunələri yaradıblar. Müasir texnologiyalar əsrində onların bir qismi bəzilərimizə köhnəlmiş kimi görünə bilər. Amma bu günə qədər biz həmin nümunələri hələ də maraqla izləyiriksə, deməli, bu barədə düşünməyə dəyər. Əvvəllər teatr üçün ilkin olaraq, yüksək peşəkar səviyyəli dram əsəri, kino üçün isə, peşəkar ssenari seçilirdi. Bütün bunlardan sonra sənətdə sözünü demiş sənətkarlar, istedadlarına inandıqları yaradıcı qruplarla sənət nümunələri yaradırdılar. Mən söhbətə qoşulmaq istəyirdim ki, İlham mənə konfetləri göstərib, dedi ki, xahiş edirəm, bax, bu dadlı "Əyri pəncəli ayı" konfetini yeyib, çayını iç, mən fikrimi davam etdirim:



-Sabiq nazirə dedim ki, keçmişin sənətkarları tanışa, dayıya, xalaya yox, istedada qiymət verirdilər. O zamanlar istedadı olana yaşıl işıq yandırıldığı üçün yüksək peşəkar səviyyəli sənət nümunələri yaradılırdı. Mən İlhamın dediyi dadlı "Əyri pəncəli ayı" konfetini yeyib, çay içə-içə maraqla ona baxırdım. O isə, söhbətini davam etdirir:

-Mən allahın qismətinə inanan adamam. Qismətdən artıq yemək olmaz. Mən qismətindən artıq yemək istəyənlərə, düzü əhəmiyyət vermirəm. Bəzən görürsən ki, həyatda hər şeyi əldə etmiş biri, sağlamlığı və həyatı hesabına daha nələri isə əldə etməyə can atır. Mən belə sənət adamlarını anlaya bilmirəm. Axı heç kim bu dünyada əbədi deyil. Heç kim bu dünyadan istəsə belə, heç nə apara bilməyəcək. Məsələn, mən heç vaxt, heç nəyə can atmamışam. Sadəcə olaraq, başımı aşağı salıb, sənətimlə məşğul olmuşam. Səhnədə və ekranda mənə tapşırılan obrazı ürəklə, peşəkarlıqla canlandırmağa çalışmışam. Xalqın sevgisi, ad-san və şöhrət özü gəlib məni tapıb. Mən "Xalq artisti" fəxri adına, "Şöhrət" ordeninə, TXİ-nın təsis etdiyi "Sənətkar" medalına, Prezident təqaüdünə, Professor adına layiq görülmüşəm. Buna görə mən həmişə sənətimə çox yüksək dəyər verən xalqıma və dövlətimə minnətdaram. Amma bu yaşımda aktyor olaraq səhnədə və ekranda canlandırmaq istədiyim obrazlar, rejissor kimi yozum vermək istədiyim dram əsərləri var. Allah ömür versə, bunları hayata keçirəcəyəm.

Mən sənətkara Musiqili Teatrda hazırlanmalı olan " Əliqulu evlənir " tamaşası və rəhmətlik bəstəkar Oqtay Rəcəbovla bağlı sual vermək istəyirdim. İlham sanki bunu hiss edib, mənim təəccübümə rəğmən, söhbəti məhz, həmin məcrada davam etdirdi:

- Sənin mənə sual vermək istədiyini hiss etdiyimdən, həmin suala ətraflı cavab verim. Amma əvvəldən danışım ki, həm sənə, həm də oxuculara hər şey aydın olsun. Sabit Rəhmanın eyniadlı " Əliqulu evlənir" komediyası əsasında librettonu mən, mahnıların mətnini, yaxın dostum Baba Vəziroğlu yazdı. Adlarını çəkmək istəmədiyim iki bəstəkar librettoya musiqi yazmağı boyunlarından qaçırdılar. Amma gözəl sənətkarımız Oqtay Rəcəbov çox qısa bir müddətə librettoya musiqini yazıb, təhvil verdi. Mən sabiq nazirə bəstəkar Oqtay Rəcəbovla " Əliqulu evlənir " əsərini yeni versiyada işləməyə başladığımızı və pandemiya səbəbindən işin dayandığını, sonra işi davam etdirdiyimizi dedim. Amma təəssüf ki, maliyyə vəsaitinin yoxluğu səbəbindən bu tamaşanı reallaşdıra bilmədik. Oqtay müəllim arzusunda olduğu tamaşanı səhnədə görmədən bu dünyadan köçdü. Oqtay müəllim son tamaşasını görsəydi, bəlkə də ömrü bir qədər uzana bilərdi. Amma olmadı. Görkəmli sənətkarımız həyatla vidalaşmalı oldu. Mən bu əsərin tamamlanıb, nəhayət səhnə üzü görməyini çox istəyirəm. O zaman rəhmətlik Oqtay Rəcəbovun da ruhunu sevindirmiş olaram.

Mən çay stəkanını nəlbəkiyə qoyub, çərəzlərdən yeyə-yeyə İlhama dedim ki, sən məqalədə yazdıqlarının hamısını sabiq nazirə demisən. İlham söhbətini davam etdirərək:

- Əlbəttə, demişəm. Ona dedim ki, bir aktyor kimi mənim özümə qalınca, təbii ki, daha mükəmməl obrazlar yaratmaq arzusundayam. Amma təəssüf ki, bu mümkünsüzdür. Çünki, aktyor rejissordan asılı sənətdir. Rejissor aktyoru bu və ya digər obrazda görməsə, həmin aktyor səhnədə və ya ekranda öz bacarığını göstərə bilməz. Elə istedadlı aktyorlarımız olub ki, onları ömürləri boyu, rejissor qurduğu tamaşa və ya çəkdiyi filmdə görməyib. Bax, faciə budur. Həmin aktyorlar elə sənətdə öz obrazlarını gözləyə-gözləyə, həyatları ilə vidalaşıblar...

Mən söhbəti davam etdirərək:-Sənin dediklərində çox böyük həqiqət var - deyirəm.

İlham mənim stəkanıma və öz stəkanına çay süzərək gülə-gülə deyir ki, sən bu "Alyonka" konfetini yeyib, çay nuş elə, mən fikirlərimi davam etdirim: - Çingiz, dediklərim digər sənət, sənətkarlar və xüsusən yetişməkdə olan gənclər haqqındadır... Son vaxtlar sənətdə olan müasir qruplaşmalar da məni narahat edir...

Mən sənətkarın dediklərini anlamadığım üçün:

-Müasir qruplaşmalar, bu da təzə çıxıb? - deyə soruşuram.

İlham çayını içərək, gülə-gülə, mənə baxaraq: - Əlbəttə, təzə çıxıb. Məsələn, bir qrup teatrşünas bir yerə toplaşıb, orta və ya daha çox hallarda zəif bir tamaşanı təriflləyə-təriflləyə göyün yeddinci qatına qaldırırlar. Bunu çoxlarımız görsək də, nədənsə susuruq. Sənətdən başı çıxan insanlar nə qədər çalışsalar da bu boş təriflərin nə ilə əlaqədar olduğunu anlaya bilmirlər. Amma təriflər müəyyən bir qrupda, xüsusən gənclərdə, hansısa səhv bir fikir də yarada bilir. Bu bir növ anti reklamın reklam kimi təqdim olunmasına bənzəyir. Axı, anti reklam özü də reklamdır. Bu teatrda da, kinoda da, televiziya məkanlarında da belədir. Bundan isə, sənət heç vaxt, heç nə uda bilməz. İnkişaf istəyiriksə, sənəti sənət, tənqidi də tənqid kimi qəbul etməyi bacarmalıyıq. Çünki, qərəzsiz tənqid, əslində inkişaf deməkdir. İlham yenə konfet yemədən, çaydan bir qurtum içib, söhbəti davam etdirir:- Teatrlarla bağlı mən dəfələrlə dediklərimi və yazdıqlarımı bir daha təkrar edirəm. Teatrın yaradıcılığına bir nəfər cavabdeh olmalıdır, o da baş rejissordur. Teatrın düşünən beyni rejissordur. Novator rejissor Tofiq Kazımovun fəaliyyətini yadımıza salsaq, o zaman hər şey bizə aydın olar. Teatrları təcili olaraq, məmur teatrından rejissor teatrına çevirmək lazımdır. Teatrlarda baş rejissorla birlikdə bir neçə rejissor fəaliyyət göstərib, müxtəlif səpkili tamaşalar hazırlamalıdır. Yaşlı aktyorlar, söhbət işləməyə qadir sağlam aktyorlardan gedir, orta yaşlı və cavan aktyorlarla yanaşı, çiyin-çiyinə çalışmalıdırlar. Ölkənin paytaxtında və digər iri şəhərlərdə İldə ən azı bir-iki teatr festivalı keçirilməlidir. Festivalların münsiflər heyəti hər il dəyişilməlidir. Münsiflər heyətinin tərkibi dost-tanış qruplarına çevrilməməli və bir nəfərin iradəsinə tabe olmamalıdır. Ölkə teatrlarının tamaşaları xarici ölkə festivallarına qatılmalı, xarici ölkə teatrlarının ən yaxşı nümunələrinin bir neçəsi ölkədə nümayiş etdirilməlidir. Teatrlara zəif dram əsərlərinin ayaq açmaması üçün müxtəlif mövzular üzrə yazılmış pyeslərin müsabiqələri keçirilməlidir. Filmlər üçün də müsabiqələr keçirilib, ən peşəkar ssenarilər seçilib, alınmalıdır. Mütləq mənada, teatrların bədii şuraları işlək vəziyyətə gətirilməlidir. Teatr sahəsində olduğu kimi, kino sahəsində də köklü dəyişikliklər və islahatlar aparılmalıdır. Teatrda və kinoda dünya təcrübəsindən istifadə edilməlidir. Bu sahədə peşəkar kadrlar yetişdirmək üçün gəncləri xarici ölkələrə təhsil almağa göndərməli və ölkəyə qayıtmaları üçün şərait yaradılmalıdır. Sənət ölkə daxilində, dar çərçivədə inkişaf edə bilməz.

Mən çayımı içib, " Alyonka " konfetini yeyə-yeyə maraqla sənətkar dostuma baxıram. O, dərhal mənim baxışlarımla nə demək istədiyimi anlayır və gülə-gülə deyir:

-Bilirəm, deyəcəksən ki, bu heç doğum günü münasibəti ilə yazılan məqalə olmadı. Qoy belə olsun. Etiraf etməliyəm ki, mən əsl sənət və əsl rejissor görmüşəm. Məni, tanınmayan bir gənci istedadıma inanaraq, korifey sənətkar Hüseyn Seyidzadə " Qaynana " filmində İlqar, Əjdər İbrahimov isə,"Qəribə adam" filmində Əbdülrəhman rollarına çəkib. Teatrda isə, məni və o dövrün bir qrup istedadlı gənclərini Tofiq Kazımov Akademik Milli Dram Teatrına dəvət edərək, hazırladığı tamaşalarda əsas rollar həvalə edib. Sənətdə məni heç vaxt tapşıran olmayıb. Bu gün baş verənləri mən anlamaq istəsəm də, anlaya bimirəm. Ona görə də düşündüklərimi deyirəm və imkan olanda yazıram.

Doğum günü ilə bağlı yazıya qalınca, məncə doğum günü yazısı elə belə olsa yaxşıdır. Mirzə Ələkbər Sabir demişkən, düzü düz, əyrini əyri... Çingiz, sən ərik qurusundan ye. Mən sənə düşündüklərimi dedim, sən də yazdın. Çox sağ ol. İlham mənə gülə-gülə baxıb: - Qələm əlimdədir!- deyir.

Mən onun sözlərinə ürəkdən gülərək, deyirəm:- Ay qardaş, ay sənətkar, mən sənin doğum gününlə bağlı təbrik məqaləsi yazmaq istəyirdim. Sən mənim bütün planlarımı pozdun, (gülə-gülə) sual verməyə belə imkan vermədin. Sənətdə-teatr və kinoda, səni narahat edən məsələlərdən danışdın. Amma indi icazə ver, mən də sənin doğum gününlə bağlı arzularımı yazım.

İlham gülə-gülə mənə baxıb, zarafatla: - Əlbəttə, yaz, amma (əlini masaya uzadıb, bir şokolad götürərək) bu "İlham" ("Vdoxnoveniye") şokolad plitkasını Babayev fabriki mənim doğum günümlə bağlı istehsal edib. Bu şokoladı yeyə-yeyə məqələnin təbrik hissəsini evdə yazarsan- dedi.

Mən sənətkarın dediyi kimi, məqalənin təbrik hissəsini " İlham " şokolad plitkasını yeyib, çay içə-içə evdə yazdım. Deməliyəm ki, şokalada söz ola bilməz, doğrudan da dadlı şokaladdır. Sənətkarın adına layiq şokaladdır. Mənim təbrikim isə, belədir:

- İlham səni, xalqın sevimlisinə çevrilmiş İllərin sənətkarını, doğum günü münasibəti ilə ürəkdən təbrik edirəm. Sənə, sənətkar dostuma, uzun ömür, möhkəm can sağlığı və daha böyük uğurlar arzu edirəm. Arzularıma sənət yoldaşlarının və çoxsaylı tamaşaçıların da qoşulacağına tam əminəm. Ləyaqətini, abrını, mənliyini qoruyub saxlamağı bacaran sənətkarı, İlham Namiq Kamalı daha neçə-neçə illər səhnədə və ekranda görmək arzusu ilə,

***Çingiz Ələsgərli***
***teatrşünas, dramaturq***

# Rusiyalı ekspert:
# “Qərb Ermənistandan alver vasitəsi kimi istifadə edir”

**Sərhəd Əməkdaşlığı Assosiasiyasının aparıcı analitiki, rusiyalı ekspert Sergey Borovikov ”Caliber” analitik mərkəzinə müsahibəsində regionda gedən proseslər haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**

*- Sergey Yevgeniyeviç, Azərbaycan, Türkiyə və Türkmənistanın Transxəzər qaz layihəsinin həyata keçirilməsi perspektivlərini necə qiymətləndirirsiniz?*

- Transxəzər qaz layihəsinin həyata keçirilməsinə son dərəcə şübhə ilə yanaşıram. Birincisi, ona görə ki, hazırda nə Türkmənistanda, nə də Azərbaycanda artıq qaz həcmi yoxdur. Bildiyimə görə, Türkmənistandan Çinə gedən qaz kəmərləri az yüklənib, ona görə də bu qaz kəməri ilə əlavə qaz həcmlərinin qısa müddətdə haradan əldə edilməsinin mümkün olacağı hələ bəlli deyil. Axı, bu təsirli bir investisiya tələb edir və zamanla uzanacaq. Və mənim başa düşdüyümə görə, Avropa İttifaqı uzunmüddətli perspektivdə qaz alışının həcminə heç bir zəmanət vermir, üstəlik, onun qalıq yanacaq mənbəyindən asılılığı azaltmaq və bərpa olunan enerji mənbələrinə keçid proqramı var. Müvafiq olaraq, Avropa İttifaqının enerjitutumlu sənayesinin bir hissəsinin artıq ABŞ və Çinə köçürüldüyünü nəzərə alsaq, Avropa İttifaqının indi bu qaza ehtiyacı olsa da, 10 ildən sonra ehtiyac olub-olmayacağı o qədər də aydın deyil. Amma indi buna ciddi sərmayə qoyulmalıdır. Mənim fikrimcə, Türkmənistandan keçməklə Çinə qaz axınının bir hissəsinin istiqamətinin dəyişdirilməsi layihəsi daha perspektivli olardı. Çin dünyanın ən sabit və inkişaf edən iqtisadiyyatıdır, ona görə də hesab edirəm ki, Azərbaycandan şərqə qaz nəqlinin şaxələndirilməsi daha çox ölkənizin maraqlarına uyğun olardı.




*- Sizcə, ötən il Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı nələr oldu?*

- Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması baxımından ötən il hər cür hadisələrlə dolu oldu, amma son normallaşma təəssüf ki, baş vermədi. Düşünmürəm ki, Bakı ilə İrəvan arasında münasibətlərin nizamlanması yaxın və ya orta perspektivdə mümkün olsun.

*- Yəni, bu il də sülh sazişinin imzalanması ehtimalını istisna edirsiniz?*

- Bu il sülh sazişinin bağlanma ehtimalı sıfıra bərabər deyil, amma fikrimcə, hər hansı irəliləyiş gözləmək çətindir. Bu, ilk növbədə dünyada ümumi qeyri-sabit hərbi-siyasi vəziyyətlə bağlıdır.

*- Ermənistanda revanşist əhval-ruhiyyə fonunda onun hakimiyyəti aktiv şəkildə silah alır. Sizcə, Ermənistan yeni müharibəyə hazırlaşır?*

- Qarabağda itirilən müharibədən sonra Ermənistanda revanşist əhval-ruhiyyəni başa düşmək olar. Hesab edirəm ki, hərbi toqquşma gec-tez baş verə bilər, amma bu il çətin ki olsun. Ermənistan silahı müharibədə Azərbaycana uduzandan sonra deyil, müharibədən əvvəl almalı idi.

*- Sizcə, Ermənistan hələ uzun müddət Rusiya ilə Qərb arasında manevr etməyə davam edəcəkmi?*

- Nə qədər ki, Ermənistanda qərbyönlü hakimiyyət dövlət başındadır, orada Qərbə baxmaq davam edəcək. Bunun nə qədər davam edəcəyini söyləmək çətindir, çünki hazırda xaotik vəziyyət göz qabağındadır və siyasi sabitliyi proqnozlaşdırmaq çətindir. Problem ondadır ki, Rusiyadan fərqli olaraq Qərb Ermənistana fiziki kömək edə bilməz. Hələlik Qərb Ermənistanı baş verənlərdən siyasi cəhətdən təcrid etməyə, ondan alver vasitəsi kimi istifadə etməyə çalışır. Ona görə də Ermənistan qərbyönlü oriyentasiyasını qoruyub saxlasa, onun taleyi gələcəkdə çox acınacaqlı və qibtəedilməz olacaq.

*- 2022-ci il Azərbaycan-Rusiya münasibətləri üçün hansı il olub?*

- Ötən il Rusiya-Azərbaycan münasibətləri üçün kifayət qədər ziddiyyətli il oldu. Bir tərəfdən, ən azı maliyyə baxımından qarşılıqlı ticarətdə artım var idi, digər tərəfdən, Azərbaycanın Rusiya sülhməramlıları və Ermənistanda baş verənlərlə bağlı kifayət qədər şikayətləri var. Bütövlükdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin hələ də etibarlı inkişaf perspektivi var.

*- Və nəhayət. Sizcə, Ukrayna böhranı bu il başa çatacaqmı?*

- Ukrayna böhranı, çox güman ki, bu il bitməyəcək. Çox güman ki, o, qeyri-müəyyən müddətə uzanacaq.

***Tərcümə - Elçin Bayramlı***




# “Azərbaycan haqlı istəyinə nail olacaq”

**“QHT-lərin, aktivistlərin təşəbbüsü ilə Qarabağ iqtisadi rayonunda keçirilən aksiyanı dəstəkləyirik. Bu, önəmli hadisədir”. Politoloq Qabil Hüseynli ”Səs” qəzetinə açıqlamasında deyib.**

Onun sözlərinə görə, bu aksiyalar Azərbaycanın bütün əraziləri üzərində suverenliyin tam bərpasına qədər davam edəcək: ”Artıq onun ilk nəticələri var. Qarabağ ərazisindəki faydalı qazıntı yataqlarının xarici şirkətlərlə istismarı dayandırılıb. Üstəlik, Qarabağdakı erməni separatçılarının hökm etdiyi ərazilərdə yaşayan insanlarla təmas qurulması işi də Azərbaycan hökuməti tərəfindən sürətlə aparılır. Burada da müəyyən irəliləyişlərin olduğunu demək olar. Artıq Xankəndinə və digər ərazilərə Azərbaycan mallarının göndərilməsi və təchizatın təmin edilməsi, alış-verişin Azərbaycan manatı ilə aparılması variantı müzakirə edilir. Ermənilərin çox hissəsi, hətta Paşinyan da belə bir təchizat sisteminin qurulmasına razı olduqlarını bildiriblər. Gələcəkdə bu məsələ daha detallı sürətdə araşdırılıb konkret işlərə çevrilə bilər. Hər halda ortaya Azərbaycan cəmiyyətinin rəyinin, iradəsinin qoyulması səmərələr verməyə başlayıb və inanıram ki, gələcəkdə də bu davam edəcək. Azərbaycan ictimaiyyətinin nümayəndələri bu etirazla bir daha dünyanın diqqətini Qarabağa yönəldir, ölkəmizə haqq-ədalət tələb edir. Bu aksiya iştirakçıları tezliklə istədiyinə nail olacaq. Biz haqq, ədalət, ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə hörmət edilməsini tələb edirik. Əminliklə demək olar ki, Azərbaycan bu dəfə də haqlı istəyinə nail olacaq”.

***Gülyana***






# Zelenski, yoxsa Putin "istəsə" müharibə dayana bilər?







ABŞ ilə Aİ-na üzv dövlətlərin siyasəti arasında ziddiyyətlər olacaq. Avropa İttifaqı Zelenskini sülh masasına gətirmək istəyir. Çünki Avropa İttifaqına üzv ölkələr Rusiya və Ukrayna müharibəsindən və yaranan vəziyyətdən çox əziyyət çəkdilər. Sanksiyalar Avropa İttifaqını vurdu. Görünür ki, Aİ açıq şəkildə zərərdə, ABŞ isə mənfəətdədir. Onlar, xüsusilə, enerji xərcləri baxımından təsirləndilər. Alman sənayesi demək olar ki, çöküb. Avropada artıq daxili ictimai rəy hökumətlərə təzyiq göstərir, ictimaiyyət narazıdır. Aİ Zelenskini sülh masasına gətirə bilməsə, daha çox siyasi dəyişikliklər olacaq. Almaniya kimi digər Aİ ölkələrində siyasətçilər, ictimai rəy və ya qanunvericilər təzyiqlə üzləşirlər. Sülh razılaşması, müharibənin dayandırılması və normal həyatın bərpası üçün təzyiqlər artır. Aİ bürokratiyası ilə üzv dövlətlərin siyasətləri arasında ziddiyyətlər yaranmağa başlayıb. Almaniya və ya digər Avropa ölkələrinin yüksək müdafiə xərcləri, yaşayış və enerji xərcləri, Ukraynaya həddindən artıq yardım kimi vəziyyətlər, xüsusilə, qışda insanlar üçün ciddi problemlər yaradır. Bu da təzyiq elementi olacaq. Yəni, təkcə Ukraynaya edilən yardım deyil, Avropanın yenidən müharibə vəziyyətinə gətirilməsi, silahlanması kimi vəziyyətlər də sual altına düşəcək. Ukrayna böhranında danışıqlara çağırışlar dərinləşdikcə, Kiyev administrasiyası Aİ liderlərinin sülh danışıqları ilə bağlı addımlarını "mənasız və gülünc" hesab edir.

### Bəs, Ukrayna 2023-cü ildə Rusiya ilə sülh masasına oturacaqmı?

2023-cü ilin daxil olması ilə keçən ilin fevral ayından davam edən Ukrayna və Rusiya müharibəsinin bu il həll edilib-edilməyəcəyi gündəmə gəlib. BMT-də "sülh sammiti" təşkil etmək təklifləri var. Liderlər 2023-cü ilin girməsi ilə yeni danışıqlar başladıb.

Əksəriyyəti Avropa ölkələrindən ibarət olan NATO-nun baş katibi Yens Stoltenberq sülhə gedən yolun Kiyev administrasiyasına hərbi dəstəkdən keçdiyini təkid edir. Amma Aİ ölkələri bu məsələdə də Stoltenberqlə razılaşmır. Məsələn, İtaliyanın baş naziri Giorgia Meloni İtaliyanın sülh prosesinin təminatçısı olmağa hazır olduğunu, buna görə də fevralın 24-də əməliyyat başlamazdan əvvəl Kiyevə gedəcəyini və Ukrayna prezidenti Vladimir Zelenski ilə görüşəcəyini açıqlayıb.

2023-cü ilin ilk sülh danışıqlarına çağırış edənlər Avstriya və Hindistanın xarici işlər nazirləri Alexander Schallenberg və Subramanyam Jaishanka idi. Yanvarın 2-də ikisi Vyanada görüşdü və danışıqlara qayıtmağa çağıran liderlər sırasında yer aldı.

### Sülhə çağıran Avropa liderləri Kiyevdə

Moskva ilə sıx əlaqələrin sülhün təmin edilməsi üçün istifadə edilməsi lazım olduğuna və Ukraynanın ABŞ-dan maliyyə və hərbi yardım aldığı müddətcə sülhdən danışa bilməyəcəyinə işarə edən Macarıstanın baş naziri Viktor Orban Kiyev rəhbərliyinin hədəfində olub.

Fransa prezidenti Emmanuel Makronun NATO-nun mümkün sülh danışıqları üçün Rusiyaya "təhlükəsizlik zəmanəti" verməli olduğu barədə açıqlamaları da Ukrayna administrasiyası tərəfindən tənqid edilib. Bu tənqidçilərin fikrincə, Moskvaya veriləcək yeganə təhlükəsizlik zəmanəti "Rusiyanın nüvəsizləşdirilməsi və ordusunun tərksilahı" ola bilər. Digər tərəfdən, Ukrayna Prezident Aparatının rəhbəri Andriy Yermak "bəzi Qərb siyasətçilərinin" Rusiya və Ukrayna arasında danışıqlara çağırışlarını "gülünc" adlandırıb. Buna sərt dillə reaksiya verən Makron "Mənə əxlaq dərsi verənlər kiminlə masa arxasında oturacaqlarını mənə izah etsinlər" deyib.

### Aİ insanları hesab edir ki, Qərb Ukraynanı danışıqlara məcbur etməlidir

Donbass əməliyyatı ilə Rusiyaya qarşı ard-arda sanksiya paketlərini açıqlayan Aİ, bu embarqolar səbəbindən enerji və iqtisadi böhranla üzləşməsi avropalıları qəzəbləndirib. 2022-ci ilin sonuna doğru etirazların və tətillərin artdığı Aİ ölkələrində ictimaiyyət siyasətçilər üçün böyük təzyiq mənbəyi olmaqda davam edir. Aİ əhalisinin 80 faizindən çoxu Ukrayna üzrə sülh danışıqlarının aparılmasını istəyir. Danışıqları daha çox Brüsselin sanksiya paketlərinin əksəriyyətini qəbul etməyən Avropanın cənub ölkələri dəstəkləyir.

Zelenski diplomatlarının 2023-cü il vəzifələrinə sülhü daxil etməyib.

Qərb liderlərindən tez-tez müxtəlif silahlar və hava hücumundan müdafiə sistemləri tədarükü tələb edən Zelenski Fransanın "LCI" telekanalına verdiyi müsahibədə bəzi ölkələrdən Rusiya ilə danışıqlara çağırışlar eşitdiyini, lakin "heç bir məna görmədiyini" deyib. Hazırda Zelenski 2023-cü ildə ölkə diplomatiyasının əsas vəzifələrini açıqladığı çıxışında olduğu kimi, Rusiya ilə sülh danışıqlarını da məqsədləri sırasına daxil etmir. Əksinə, Kreml tez-tez vurğulayır ki, Zelenskinin özü də bilir ki, "istəsə" Ukraynada hərbi əməliyyatlar sabah bitə bilər.

*Qönçə Quliyeva*



## Hücum diplomatiyasının ikinci fazası: vaxtı çatıb!

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

**Maraqlıdır, axı Laçın yolundakı situasiya ilə bağlı dünyanın aparıcı KİV-ləri və nüfuzlu şəxsləri nə qədər məqalələr və tvittlər yazmalıdırlar ki, Ermənistan rəhbərliyində oturanlar nəticə etibarilə anlasınlar ki, onların Azərbaycan rəhbərliyinin, eləcə də vətəndaş cəmiyyətinin qərarlarına heç bir təsirləri olmayıb və olmayacaq da. Çünki erməni rəhbərliyinin bəyanatları, yazdıqları qucaq-qucaq məktubları reallıqda Azərbaycan xalqının və dövlətinin hüquqi, qanuni tələblərinə, ümumiyyətlə, təsir göstərmir. Fakt da budur ki, ermənilərə qahmar çıxan türkofoblar, satılmış və korrupsiyalara bulaşmış siyasətçilər, yenidən SSRİ xəyallarına dalanlar və sair dairələr hüquqi əsaslar qarşısında acizdirlər!**

Başqa tərəfdən, onlar - yeni ermənilərə qahmar çıxanlar yaranmış situasiyanın həll olunması yönündə əvvəl-axır bir etirafı etməlidirlər: ya dəqiq şəkildə bildirməlidirlər ki, Qarabağı Azərbaycanın ərazisi olaraq tanıyırlar, ya da əksinə - Qarabağın Azərbaycanın ərazisi "olmadığını" deməklə gerçək sima(sızlıq)larını ortaya çıxarmalıdırlar. Misal üçün, Fransa kimi! Fransa rəhbərliyi məhz ikinci variant üzərində dayanıb və açıq-aşkar Azərbaycanın beynəlxalq hüquq tərəfindən tanınan ərazisinə xor baxır. Təkcə son 2 ildə rəsmi Parisin, sözün əsl mənasında, nümayiş etdirdiyi oyunbazlıqlarını sadalasaq kifayət edər.

Təbii ki, rəsmi Bakı da reaksiyalarını göstərir, amma belə davam edərsə, artıq bütün bunların önlənməsi üçün preventiv, qətiyyətli addımların da atılması vacibliyi aktuallaşır. Məsələn, rəsmi Bakı Korsika və Yeni Kaledoniya mövzularını daha geniş şəkildə müzakirəyə çıxara bilər, özü də Milli Məclis səviyyəsində! Məhz Azərbaycan parlamenti hökumətə rəsmi qaydada müraciət, yaxud çağırış edərək həmin mövzu ətrafında dinləmələr keçirə, qərarlar verə bilər.

Üstəlik, digər preventiv addımları da unutmaq olmaz. Belə ki, fransız mövzusu gündəmdə ardıcıllığı ilə saxlanılmalıdır və bunun üçün ilk addım olaraq Fransanın Azərbaycandakı səfirini bütün rəsmi səviyyələrdə iqnor etmək olar, əlbəttə ki, XİN istisna olmaqla. Çünki qarşı tərəfin mövqeyini öyrənmək, həmçinin notaları təqdim etmək üçün el dili ilə desək, "barmaq yeri" qoymaq lazımdır. Hətta fransızların ermənipərəst və ərazi bütövlüyümüzə zidd baxışlarına cavab olaraq Fransanın ölkəmizdəki səfiri Azərbaycanın xarici işlər naziri və ya müavini ilə deyil, dəftərxana müdiriyi ilə görüşünü böyük uğur kimi qəbul etməlidir!

Təbii ki, Azərbaycanın son illərdəki uğurlu diplomatiyası və ya daha dəqiq desək, hücum diplomatiyası öz sözünü deməkdədir. Belə olan halda Fransa rəhbərliyinin Azərbaycan dövlətinə və xalqına qarşı, sözün həqiqi mənasında, həyasız davranışlarına cavab olaraq niyə də daha sərt reaksiyalar verilməməlidir?! Məgər Makronun və Fransa Senatında oturub dövlətimizin maraqlarına qarşı dil uzadan, səs verən korrupsiyalaşmış ermənipərəst deputatlarının qaşlarıgözləri bizimkindən qaradır?! Axı nə vaxta qədər onlar bu və ya digər şəkildə ağıllarına və ağızlarına gələn hər şeyi dövlətimizin, xalqımızın üzərinə yönəldib, erməni marqlarına haqq qazandıracaqlar?! Bəs deyilmi?! Əlbəttə ki, bəsdir! Və birdəfəlik bəs olması üçün ən azından hücum diplomatiyamızın ikinci fazasını işə salmaq olar, hətta vaxtı da çatıb!

# Hər gün yalan danışın

## FELYETON



Elçin Bayramlı

**Uzun zamandır hamı gileylənir ki, bəs zəmanə korlanıbdır, adamlar yaman yalançı olubdur, heç kimə inanmaq olmur. Doğru buyururlar, cəmaətimiz son dövrlərdə yeni azara mübtəla olubdur- yalançılıq azarına. Gecə-gündüz hamı bir-birini aldadır. Bazarda, məktəbdə, nəqliyyatda, idarədə, zavodda, televiziyada, qəzetdə, lap elə parlamentdə...**

Bazarda 1 kq əvəzinə sənə 800 qram meyvə çəkən alverçidən inciməyə dəyməz, axı o yetim də ona-buna haqq verəndən sonra özünə 5-10 qəpik çörək pulu qalmalıdır. Ya da "yumurtanı təzə gətirmişəm, öz həyətimdəndir" deyən arvada inanıb evdə köhnə broyler yumurtasını yeyə bilməyəndə ona söyməli deyilsən ki? Adamın çörəyi yalandan çıxır.





Yainki, bir yeməkxanada oturub yemək yeyirsən, hesabda sənə xeyli kələk gəlir, and-aman edir ki, bəs biz halal məhsul alırıq, ona görə də bahadır. İndi neyləmək olar, gərəkdir ki, bu yalanı udasan, yediyin yeməyi geri qaytara bilməzsən ki?

Ya da ki, bir dostundan bir neçə günlüyə kiçik bir miqdar borc istəyirsən, deyir ki, sən öl, özüm ölüm, Quran haqqı yoxumdur. Amma sabah eşidirsən ki sağlığına qismət olsun özünə bahalı maşın alıbdır. İndi yalan deyir deyə vurub onu öldürəkmi?

"Balam ölsün yalan deyirəmsə, öz inəyimin südüdür" deyən arvadın həyətində "stolovoy" zibilləri ilə qidalanan cəmi bir inəyi var, amma butun şəhərə süd, qatıq satır. İncəfara, onun süd, qatığı yaman yağlı olur. Bunun özü də bir əziyyətdir, get mağazadan vaxtı keçmiş marqarin yağını al gətir, sonra onu gətir ərit və bir miqdar quru süddən düzəltdiyin məhlula qat "təbii süd" düzəlt. Bəli, bu elə belə iş deyildir.

Düzdür, haman o arvad bu əməli ilə başqalarının körpə uşaqlarını zəhərləyib sağalmaz bəlalara giriftar eləyir, lakin cənnətə düşəcəyinə əmindir. Deyir ki, bəs mən namaz qılıram, Məşhədə getmişəm, kasıb-kusuba əl tuturam, onlara nisyə də mal verirəm.

Bu arvadın dediyinə görə, o dünyada bunu məhkəmə qarşısına çıxaranda ki, sən xalqı niyə zəhərləyirdin, cavab verəcək ki, bəs mən neyləyim, 250 manat pensiyanın 100 manatını kommunal xərclərə, 100 manatını da dərmanlara verib özüm acından ölümmü? Bu yerdə ədalət məhkəməsinin boğazı quruyacaq, axı ilahi qanunlara görə də hər kəsin özünün müdafiə etmək və yaşamaq hüququ vardır. Beləliklə, məcburən bu arvadı cənnətə salacaqlar.

Yainki, götürək bir həkimi. Ağır bir azara mübtəla olub çarə üçün onun yanına gedənlərə düzgün müalicə yazsa, ondan rüşvət almasa necə dolanar, lap acından ölər ki? Sən özün ol, bir dərman firmasının nümayəndəsi gəlib sənə desə ki, həmşərim, bəs xəstələrə filan dərmanları yazsan hər birində yarısı sənindir, neyləyərsən? Necə? Razı olmazsan?! Get özüvə ala! Bizdə 3 tuzdur!

Məgər sənin uşaqların oyuncaq əvəzinə inək peyini ilə oynayır, yainki, övrətin toya qoyun dərisi geyib gedir, bəlkə sən yemək əvəzinə havayla dolanırsan? Keçməz, qədeş! 300-400 manatla sən vicdanını qoruya bilməzsən! Qorusan da ailən acından ortalıqda ölər, camaat sənin cəmdəyinə tüpürər!

Həyətindən malı oğurlanan şəxsə qonşusu dildə təəssüfünü bildirib oğrunu söyəndə, ürəyində o malı oğurladığı üçün heç bir qırıq vicdan əzabı da olmur. Yainki, birinin evindən qızıl itəndə, əksər hallarda bunu yaxın qohumun oğurladığı məlum olarkən, o adam heç xəcalət də çəkməyir.

Bir çox əcnəbi vilayətlərdə insanlar öz əşyalarını çöldə, bayırda unudanda, heç kəsin onunla işi olmaz, sahibi nə vaxt istəsə özü gəlib yerindən götürər. Gəlməsə belə kimsə götürüb polisə verər, o da sahibini tapıb çatdırar. Hətta bəzi ölkələrdə malları çölün düzündə qoyub gedirlər, qiyməti də yazırlar, adamlar gəlib lazımi qədər götürür və pulunu da qoyub gedir. Lakin bizdə belə hallar qətiyyən mümkün deyildir. Nəinki çöldə, bayırda, öz həyətində belə əşyanı gözdən qoymaq mümkün deyildir. Ol səbəbdəndir ki, bizdə üstü tikanlı məftillər və ya şüşə qırıqları ilə bəzədilmiş hündür hasarlar, topdağıtmaz polad darvazalar, 3-4 yerdən bağlanan seyf qapılar, pəncərələrə vurulmuş dəmir barmaqlıqlar həmişə dəbdədir.

Bizdə yalandan bütün müqəddəslərə and içmək də heç dəbdən düşmür. Allah haqqı, Quran haqqı, atamın, atamın canı üçün, balan ölsün(?!), ölənlərimin goru haqqı kimi andlar içənlərin çox keçməmiş yalan dediyi ortaya çıxanda adamın əli üzündə qalır.

Uzun sözün qısası, aldatmaq və yalançılıq azarı bizdə yoluxucu xəstəlik kimi yayılıbdır və bir çox vətəndaşlarımız haman bu bəlaya mübtəla olubdur. Hətta, adam bir gün yalan danışmayanda özünü birtəhər hiss eləyir, elə bil ki bir eşşək səni öz yalan danışmaqla tikdirdiyi villasında eşşək kimi işlədib, axırda da pulunu verməyibdir.



Beləliklə, aşikar olur ki, məmləkətimizdə bir çox adamlar məcburiyyətdən yalan danışır. Bələlərinə bir kəlmə söz deyəndə adam deyirlər ki, bəs hər kəsin özünü acından ölməkdən xilas etmək və yaşamaq hüququ vardır. Bunu halal yollarla təmin edə bilməyəndə, haram yollara baş vurmaqdan başqa çarəmiz qalmayır. Ona görə də, bizi qınamayın.

Yaxşı əsaslandırmadır. Əmma şəxsən məni bir məsələ düşündürür. Ki, dünyada kasıblıq çəkən, müxtəlif növ bəlalara mübtəla olan camaət təkcə bizim camaət deyil ki, bəs o birilər niyə belə həngamədən çıxmırlar? Axı halal yolla da yaşamaq mümkündür. Düzdür, bir az çətinlik çəkəcəksən, amma öz ləyaqətini, vicdanını satmayacaqsan. Görkəmli aktyorumuz Yaşar Nurinin "Qatarda" tamaşasında dediyi kimi, "canları çıxsın, təmiz yaşasınlar"...

Yaxşı, elə hesab edək ki, bu cəmaətin müəyyən bir hissəsinin başqa yolu yoxdur, bu binəvalar məcburən bu cinayətdə bulunurlar, o tövrdə bəs bir para məmurlar, pullu biznesmenlər, lap elə müğənnilər niyə xalqa yalan danışırlar? Məgər onların da balaları evdə acından ölür? Axı onların buna heç bir məcburiyyəti yoxdur. Nöşün ki, indi əvvəlki zamana deyil, adamlar rahat yolla çoxlu pul qazanıb şah kimi yaşamaq istəyir.

"Mən Allah adamıyam" deyərək hamı bir-birini aldadır, badalaq vurur, oğurluq edir, qonşusu ac ikən yumşaq yorğan döşəkdə kababla doldurduğu qarnını sığallaya-sığallaya yatır.

Əşi, qorxmayın, nə axirət məhkəməsi var, nə də bizdə yalan danışmağa görə kimisə həbs eləmirlər. 5 günlük dünyadır, onun da 3-ü keçib gedib, yeyin-için kef eləyin. Şəxsən bəndəniz belə eləyir, hər gün yalan danışıram. Elə bu yazını da yalandan yazdım. Burda dediklərim bizim cəmiyyətdə olmur, ağzım... pardon, yəni, əlim öyrəşib, elə belə bekarçılıqdan yalan yazdım. Ona görə də bəndeyihəqirinizin günahından keçin.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



SON SƏHİFƏ
Səs
6 yanvar
2023-cü il



# “Qalatasaray” əzmkar qələbə ilə yenidən lider oldu!

Futbol üzrə Türkiyə Superliqasında 17-ci turun oyunları davam edir. SİA xəbər verir ki, ötən gün daha 4 qarşılaşma keçirilib. ”Konyaspor” - ”Sivasspor” matçında qalib müəyyənləşməyib. Səfərdə ”Kayserispor”la qarşılaşan ”Fatih Karagümrük” inamlı qələbə qazanıb. ”Kasımpaşa” doğma meydanda ”Alanyaspor”u böyük hesabla məğlub edib. Turnir cədvəlinin lideri olan ”Qalatasaray” öz meydanında ”Ankaragücü” ilə görüşüb.

Qarşılaşmada qonaqlar hesabı açsalar da, ”cim-bom” 2:1 hesablı əzmkar qələbə qazanıb. Bununla da İstanbul nəhəngi bazar günü əzəli rəqibi olan ”Fənərbaxça” ilə derbi qarşılaşmasına lider olaraq çıxacaq.

ARAŞDIRMA

# Bayramdan sonra işə necə adaptasiya olmalıyıq?



**Bütün işçilər bayrama sayılı günlər qala çox səbirsizlənir. Çünki güclü iş rejimi altında işləyən hər kəsin istirahətə ehtiyacı var. Bəziləri bu günləri evdə yatmaq, bəziləri isə rayon-rayon, ölkə-ölkə gəzib əylənmək üçün gözləyir. Tətilin bitməsinə 1-2 gün qalmış artıq hər kəs özünü iş mühitinə alışdırmağa çalışır. Bir çoxları üçün bu asan olsa da, əksər insanlara görə bayramdan sonra işə adaptasiya olmaq olduqca çətin bir prosesidir. Bəs, bu hallarla qarşılaşmamaq üçün nə etməliyik? Biz hansı yollarla bayramdan sonra işə daha rahat adaptasiya ola bilərik?**

İlk öncə unutmayaq ki, bayram başa çatdıqdan sonra ”real həyata” qayıtmaq vaxtıdır. İş stresindən uzaq bir istirahətdən qayıtdıqdan sonra işə uyğunlaşmaq ilk günlər çətin olur. Bu vəziyyətə yenidən alışmaq üçün isə bizə vaxt lazımdır. İşçilərin iş stresindən və məsuliyyətlərindən uzaq keçirdikləri tətil dövründən sonra əvvəlki iş rejiminə qayıtması bir çox insanın üzülməsinə səbəb olur. Bunun təsiri ilə işçilər bəzən emosional hərəkət edərək işdən çıxmaq kimi səhv qərarlar verə bilərlər.

İnsanların bayramdan sonra işdən çıxmasının ən mühüm psixoloji səbəbi tətildə olarkən işləri ilə bağlı yeni qərarlar qəbul etdikləri üçün bunları dərhal həyata keçirmək istəmələridir. Bunun qarşısını almağın yolu qərarlarımızı tətbiq etməzdən əvvəl bir az gözləmək və zamanın nə gətirəcəyini görməkdir. Araşdırmalara görə, tətildən sonra işə qayıtma sindromu depressiyaya səbəb ola biləcəyi üçün ciddi qəbul edilməli olan bir vəziyyətdir. Çünki uzun tətil dövrlərindən sonra iş həyatına uyğunlaşmaq asan deyil.

Bayramdan sonra yuxusuzluq, baş ağrıları, həzm sisteminin pozğunluqları daha çox olur. Tətildən qayıdıb dərhal işə başlamaq adaptasiyanı çətinləşdirən amillərdəndir. Dönüşünüzdən ən azı bir gün əvvəl gəlib özünüzə vaxt ayırmağınızda fayda var.

Gündəlik vərdişlərinizə yenidən uyğunlaşmağınız faydalı olacaq. İdman etmək, hobbilərinizə zaman ayırmaq və ya hətta televizor qarşısında qəhvə içmək sizi bayram sonrası işə hazırlaya bilər. Gün ərzində yüngül gəzintilərə çıxmaq, hovuza getmək kimi bayramı xatırladan fəaliyyətlərdə iştirak etmək faydalıdır. Əvvəlcə qərarlarınızı həyata keçirmək üçün nəzərdə tutduğunuz vaxtı müəyyənləşdirin, tələsməyin. Dostlarınız və sevdiklərinizlə vaxt keçirməyə çalışın. Filmlərə və ya hobbilərinizə vaxt ayırın. SİA mövzu ilə bağlı araşdırma aparıb.

Psixoloq Aytən Ələkbərova: ”Tətildən sonra işə adaptasiya olmaq bəzi insanlar üçün çox çətindir. Amma tətildən-tətilə də fərq var. Novruz bayramından sonrakı tətil ilə yay tətili tamamilə fərqlidir. Biri də var ki, ”qışın oğlan çağında” olan tətil. Hansı ki, bu fəsildə insan yatmağa meyilli olur. Bu zaman da insan psixologiyasında bəzi məqamlar baş verir.

Bu məqamlardan biri insanda özündən asılı olmayaraq aqressiyaların baş verməsidir. Aqressiyalar artdığı zaman emosiyalar üzə çıxır. Tətildən ən azı 1-2 gün öncə insan beynində müəyyən bir rejim qurmalıdır.

Novruz tətili ilə yay tətili arasında bir sıra fərqlər var. Bu fərq ondan ibarətdir ki, Novruzdan sonra işə gedərkən mövsümi yaz geyimlərinə üstünlük verilir və bununla bağlı alış-veriş edilir. Artıq insan hiss edir ki, yay tətilinə az qalıb və işə daha tez adaptasiya olur. İnsanın yeni libaslar alıb işə getməsi onun işə daha rahat adaptasiya olmasına səbəb olur. Bəzən baxırıq ki, ilin əvvəlində kimsə öz doğmasını itirir. O, ilin sonuna kimi ”Bu il mənə düşmədi” düşüncəsində olur. Bu zaman da depressiyalar özünü göstərməyə başlayır”.

*Ayşən Vəli*

# ŞOK:
## Bakıda mənzildən 4 meyit tapıldı

**Bakıda bir mənzildən 4 nəfərin meyiti tapılıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən SİA-ya bildirilib ki, hadisə Nərimanov rayonunda yerləşən mənzillərdən birində qeydə alınıb.**



Mənzilin sahibi polisə zəng edərək məlumat verib ki, kirayəyə verdiyi evin qapısı arxadan bağlıdır və nə qədər döysə də, qapını açan yoxdur. Dərhal polis əməkdaşları həmin ünvana gedərək qapını açıblar. Bu zaman mənzildə 4 nəfərin meyiti aşkar edilib. Onların üzərində zorakılıq əlamətləri müəyyən olunmayıb.

İlkin məlumata görə, onların dəm qazından boğulduğu və ya qidadan zəhərlənərək öldüyü ehtimal edilir. Qeyd edək ki, ölənlərin hamısı kişidir. Meyitlər aidiyyəti üzrə təhvil verilib. Faktla bağlı araşdırma aparılır.

# Bayram günlərində neçə yanğın hadisəsi baş verib?

**Məlum olduğu üzrə, artıq 2023-cü il daxil olub. Bəs, yeni il daxil olandan bəri ölkədə neçə yanğın hadisəsi baş verib?. Mövzu ilə bağlı SİA-nın sorğusuna cavab olaraq Fövqəladə Hallar Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.**



Qeyd olunub ki, Fövqəladə Hallar Nazirliyinin ”112” qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən bayramla əlaqədar qeyri-iş günləri ərzində ümumilikdə 170 yanğına çıxış, 26 köməksiz vəziyyətdə qalma, 3 nəqliyyat qəzası və 2 partlayış faktı üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib. Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, partlayışların nəticələrinin çevik aradan qaldırılması və insanların həyatının xilas olunması təmin edilib.

Ümumilikdə, FHN-in qüvvələri tərəfindən bayram günləri ərzində 9-u azyaşlı olmaqla 37 nəfər xilas edilib, 5 nəfər xəsarət alıb. Yanğın zamanı 1 nəfər tüstüdən zəhərlənib. Həmçinin, çoxmərtəbəli yaşayış binasında baş verən partlayış hadisəsi zamanı 1 nəfərin və nəqliyyat qəzaları zamanı aşkar olunan 2 nəfərin meyitləri aidiyyəti üzrə təhvil verilib.

*Ayşən Vəli*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3600**